# Xalq qəzeti

Xalqın qəzeti!

№ 105 (30221) 20 may 2023-cü il, şənbə

Gündəlik ictimai-siyasi nəşr

1919-cu ildən çıxır | Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti | veb-sayt: www.xalqqazeti.az


**Günün sözü**

**Prezident İlham Əliyev:**

**Biz sözün əsl mənasında, müstəqil ölkə kimi yaşayırıq. Azərbaycanda təhlükəsizlik təmin edilir, Azərbaycanda əmin-amanlıq hökm sürür. Azərbaycan sabitlik adasıdır, təhlükəsizlik adasıdır.**

## Azərbaycan multikulturalizmi Hindistan üçün cəlbedici nümunədir



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev mayın 19-da Hindistan Respublikasının ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Sridharan Madhusudhananın etimadnaməsini qəbul edib.**

Səfir etimadnaməsini Prezident İlham Əliyevə təqdim etdi.

Sonra dövlətimizin başçısı səfirlə söhbət etdi.

Səfir, ilk növbədə, Azərbaycanda Ulu Öndərin anadan olmasının 100-cü ildönümünün qeyd edildiyi bir dövrdə ölkəmizə gəlməsindən böyük məmnunluq hissi keçirdiyini bildirdi. O qeyd etdi ki, görkəmli şəxsiyyət Heydər Əliyevin və Prezident İlham Əliyevin baxışları belə bir nəticəyə gəlməyə əsas verir ki, Azərbaycan çiçəklənən, multikultural və çox güclü iqtisadiyyata malik ölkə qurmaq yolundadır.

Hazırda Azərbaycanın Qoşulmama Hərəkatına, Hindistanın isə Böyük 20-liyə və Şanxay Əməkdaşlıq Təşkilatına sədrlik etdiyini vurğulayan səfir məmnunluq hissi ilə bildirdi ki, ölkəsi Azərbaycanın ilk 5 ticarət tərəfdaşı sırasındadır və ötən il qarşılıqlı ticarətin 155 faiz artması bunun yaxşı göstəricisidir.

Sridharan Madhusudhanan bildirdi ki, Hindistanın da güclü iqtisadiyyata malik olması nəzərə alınaraq ölkələrimiz üçün iqtisadi əməkdaşlığın genişlənməsi baxımından böyük potensial var. O, bu xüsusda neft sənayesi və əczaçılıq sahələrini qeyd etdi.

Eyni zamanda, səfir Azərbaycanda hökm sürən multikulturalizmin Hindistan üçün çox cəlbedici olduğunu dedi, humanitar sahədə də əlaqələrimizin genişləndirilməsinin önəmini bildirdi.

**(ardı 2-ci səhifədə)**

## Sülhün may raundu: Moskva. 19 və 25 may



Səhifə ⇨ 3

## Ticarət dövriyyəsində 4,2 milyard dollarlıq müsbət saldo yaranıb



Səhifə ⇨ 7

## Azərbaycan maliyyə sistemi heç bir beynəlxalq qurumdan asılı deyil



Səhifə ⇨ 7

## Çin və Orta Asiya əməkdaşlığı: “Orta dəhliz” ideyası reallığa doğru




Səhifə ⇨ 10

## Erməni siyasi riyakarlığı – indiki baş nazir sabiq baş nazir qiyafəsində

Səhifə ⇨ 4

## Culfa rayonunda müasir istirahət mərkəzi



Səhifə ⇨ 6

## “The Washington Post”: Nüvə silahından heç vaxt istifadə etməyək!



Səhifə ⇨ 10

## İrəvanda yenə “qaydasız döyüş” havası duyulur



Səhifə ⇨ 3

## Yubilyar ədibin növbəti sənət hesabatı

Səhifə ⇨ 9

## Abşeronda “təcili yardım” “təxirə salınan yardım”a keçib?

Səhifə ⇨ 8

## “Bir səfirin manifesti” gürcü dilində

Səhifə ⇨ 9

## Bakıda bədii gimnastika üzrə Avropa çempionatı davam edir



Səhifə ⇨ 11

## “Daşnaksütyun” antixalq partiyası elan olundu

Səhifə ⇨ 6

# Azərbaycan multikulturalizmi Hindistan üçün cəlbedici nümunədir

(əvvəli 1-ci səhifədə)



Diplomat turizm sahəsində əməkdaşlığa toxunaraq, Azərbaycana xeyli sayda hindistanlı turistin səfər etməsinin, xalqlarımız arasında əlaqələrin qədim tarixə malik olmasının, ölkəmizdə çox sayda tarixi abidənin mövcudluğunun turizm sahəsində əməkdaşlıq üçün geniş imkanlar yaratdığını bildirdi. Səfir paytaxtımızda qədim, tarixi binalarla yanaşı, modern üslubda inşa edilmiş tikililərin də xoş təəssürat hissi doğurduğunu dedi.

Sridharan Madhusudhanan informasiya texnologiyaları, energetika, təhsil, ekologiya və digər sahələrdə əməkdaşlığın həyata keçirilməsi istiqamətində səylərini əsirgəməyəcəyini vurğuladı.

Prezident İlham Əliyev ulu öndərin müasir Azərbaycan dövlətçiliyinin banisi və ölkəmizin inkişafının təminatçısı olduğunu vurğulayaraq qeyd etdi ki, Ümummilli Lider prezidentlik fəaliyyətinə başlayarkən Azərbaycanın torpaqları ermənilər tərəfindən artıq işğal olunmuşdu, bu işğalın nəticəsində bir milyon soydaşımız tarixi yurdlarından didərgin düşmüşdü, işğal altında olan ərazilərimiz darmadağın edilmişdir. Ulu öndər Heydər Əliyevin fəaliyyətinin əsas məqsədi ərazi bütövlüyümüzün və müdafiə qabiliyyətimizin təmin edilməsi, güclü dövlət və iqtisadiyyat qurmaq idi. Dövlətimizin başçısı vurğuladı ki, iki il yarım əvvəl Azərbaycan öz torpaqlarını işğaldan azad etdi və beləliklə, Ümummilli Liderin arzu və tapşırıqları həyata keçirildi.

Azərbaycan Prezidenti qeyd etdi ki, 30 illik işğal dövründə xalqımız humanitar fəlakətlə üzləşmişdir, bir milyon soydaşımız evsiz-eşiksiz qalmışdır. Bu fakt Azərbaycanın inkişafı üçün böyük əngəllər törədirdi. İndi - torpaqlarımızın işğaldan azad edildiyi bir dövrdə ölkəmiz bütün sahələrdə böyük potensiala malikdir. İşğaldan azad edilmiş ərazilərimizdə genişmiqyaslı bərpa-quruculuq işlərinin həyata keçirildiyini vurğulayan dövlətimizin başçısı qeyd etdi ki, Vətən müharibəsində əldə olunan Qələbədən sonra Azərbaycan xalqı qürur hissi ilə yaşayır və bu, özünü bütün sahələrdə göstərir.

Azərbaycan Prezidenti, eyni zamanda vurğuladı ki, bu gün Ermənistanda revanşist qüvvələr baş qaldırmaqdadır, ölkəmizə qarşı ərazi iddiaları davam edir. Ermənistanın sürətlə silahlanmasının yeni təhlükələr yaratdığını deyən dövlətimizin başçısı qeyd etdi ki, əgər doğrudan da Ermənistan Azərbaycan ilə sülh istəyirsə onda nə üçün 100 milyonlarla dollar dəyərində silah alır. Azərbaycan Prezidenti vurğuladı ki, bu siyasət bölgə üçün yeni təhdidlərə gətirib çıxara bilər.

Prezident İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatına sədrlik məsələsinə toxunaraq ölkəmizin sədrliyi dövrünün bu Hərəkatın institusional inkişafı üçün çox səmərəli bir dövr olduğunu bildirdi. Dövlətimizin başçısı qeyd etdi ki, məlum olduğu kimi, bununla bağlı Azərbaycanın irəli sürdüyü bir sıra mühüm təşəbbüslər uğurla həyata keçirilib. Azərbaycan Prezidenti bundan sonra da Qoşulmama Hərəkatının üzv dövlətləri arasında əməkdaşlığın güclənməsinin, ölkələrin ərazi bütövlüyü və suverenliyinin, məlum Bandunq prinsiplərinə sadiqliyin davam etdirilməsinin vacibliyini vurğuladı.

Prezident İlham Əliyev Hindistanın Qoşulmama Hərəkatının əsasını qoymuş dövlətlərdən biri olduğunu xatırladaraq, bu təsisatın yarandığı dövrdən bəri müxtəlif inkişaf yolu keçməsinə baxmayaraq, onun gələcəkdə qlobal siyasətdə mühüm amilə çevrilməsinin önəmini bildirdi.

Şanxay Əməkdaşlıq Təşkilatı ilə əlaqələrə toxunan Prezident İlham Əliyev Azərbaycanın uzun illər bu təşkilatda dialoq tərəfdaşı olduğunu, ötən il isə bu təşkilatın Özbəkistanda keçirilmiş sammitində yüksək səviyyədə iştirakımızı önəmli hadisə kimi dəyərləndirdi.

Söhbət zamanı mədəniyyət, nəqliyyat, o cümlədən Şimal–Cənub dəhlizi sahələrində əməkdaşlığın perspektivləri ilə bağlı məsələlər də müzakirə olundu.

**AZƏRTAC**

# Azərbaycan Respublikasının Prezidenti Zati-aliləri cənab İlham Əliyevə

**Zati-aliləri!**

Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi münasibətilə Sizə və Azərbaycan xalqına Gürcüstan xalqı adından və şəxsən öz adımdan ən səmimi təbriklərimi çatdırmaq istərdim.

Prezident Heydər Əliyev müasir Azərbaycan dövlətinin formalaşmasında mühüm rol oynamış görkəmli dövlət xadimi idi. Məhz onun uzaqgörənliyi güclü və firavan dövlət quruculuğunun əsasını qoydu.

Bütün ölkə üçün ümid çırağı olmuş atanızın Azərbaycan xalqının firavanlığı naminə gördüyü işlər və göstərdiyi səylər gələcək nəsillərin yaddaşında qalacaq, daim onların ilham və qürur mənbəyi olacaqdır.

Prezident Heydər Əliyevin rəhbərliyi ilə Azərbaycan özünü qlobal miqyasda mühüm dövlət kimi təsdiqlədi. O, ölkələrimiz arasında əlaqələrin inkişafında həlledici rol oynayıb. Gürcüstan Azərbaycanla möhkəm dostluğu və tərəfdaşlığı yüksək qiymətləndirir. Biz xalqlarımızın firavanlığı naminə bu əlaqələri daha da dərinləşdirməyə hazırıq.

Zati-aliləri, Sizə bir daha dərin ehtiramımı bildirir, ali dövləti fəaliyyətinizdə uğurlar, dost Azərbaycan xalqına sülh, cansağlığı və firavanlıq arzulayıram.

**Hörmətlə,**

***Salome ZURABİŞVİLİ,***
***Gürcüstanın Prezidenti***

***

**Zati-aliləri!**

BMT-nin Sivilizasiyalar Alyansı və komandası adından Azərbaycan xalqını Ümummilli Lider, görkəmli dövlət xadimi Heydər Əliyevin 100 illik yubileyi münasibətilə səmimi-qəlbdən təbrik edirəm.

Azərbaycan Respublikasının BMT-dəki daimi nümayəndəsi tərəfindən Nyu-Yorkda Zati-aliləri Heydər Əliyevin xatirəsinə həsr olunmuş yaddaqalan mərasimdə iştirak etmək şərəfinə nail oldum. Mən bir daha əmin oldum ki, Azərbaycanı inkişaf yoluna çıxaran, ölkənin davamlı iqtisadi və sosial tərəqqisinin möhkəm təməlini qoyan müdrik və uzaqgörən Lider Heydər Əliyevin xidmətləri öz xalqı və onu tanıyanlar tərəfindən hər zaman ehtiramla xatırlanacaqdır.

Bu fürsətdən istifadə edərək, BMT-nin Sivilizasiyalar Alyansının Azərbaycan Respublikası ilə strateji tərəfdaşlıq və qarşılıqlı faydalı əməkdaşlığından məmnunluğumu bildirirəm.

Uzun illər ərzində biz Azərbaycanla mədəniyyətlər və dinlərarası dialoqun təşviqi üzrə səmərəli əlaqələri qoruyub inkişaf etdirmişik. Əminəm ki, bu əlaqələr daha da dərinləşəcəkdir.

**Hörmətlə,**

***Migel Anxel MORATİNOS,***
***BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi***

***

**Hörmətli İlham Heydər oğlu!**

Bu bahar günlərində Azərbaycan xalqı minnətdarlıq hissi ilə əlamətdar tarixi – böyük şöhrətə malik dövlət xadimi, iki dəfə Sosialist Əməyi Qəhrəmanı, Azərbaycanın Ümummilli Lideri Heydər Əlirza oğlu Əliyevin anadan olmasının 100 illiyini qeyd edir.

Şimali Qafqaz Müsəlmanlarının Əlaqələndirmə Mərkəzi Qafqaz respublikalarının müftilərinin şəxsində azərbaycanlıların müqəddəs hisslərini tam dəstəkləyərək, XX əsrin görkəmli siyasi xadimi, Azərbaycan Respublikasının sabiq Prezidentinin şəxsiyyətinə dərin ehtiramını ifadə edir.

Biz, yaşlı nəslin nümayəndələri Heydər Əliyevin Sovet İttifaqının sənaye bazasının inkişafı prosesində xidmətlərini və töhfələrini çox yaxşı xatırlayırıq. Güclü dövlətin fəlakətini və keçmiş sovet respublikalarında keçid dövrünün problemlərini xatırlayırıq. Sosialist sisteminin süqutu dövrü məhdud dünyagörüşlü və savadsız siyasətbazları hərəkətə gətirdi. Vətəndaş qarşıdurması dövrlərində öz xalqı Heydər Əlirza oğluna müraciət etdi və o, dövlət strukturlarının dağıldığı ağır şəraitdə parçalanmanı dayandırdı, xalqı öz ətrafında birləşdirdi. Onun yüksək istedadı və siyasi müdrikliyi sayəsində Azərbaycan müstəqillik əldə etdikdən sonra ayaqda dura bildi və dünya birliyi dövlətləri arasında özünün layiqli yerini tutdu.

Heydər Əliyevin sülhsevərliyi, insanpərvərliyi öz xalqına dərin ehtiramı respublikada ona ümumxalq sevgisi və böyük nüfuz qazandırdı.

Uca Allaha dua edirik ki, Azərbaycan xalqına rifah və mərhəmət bəxş etsin.

Cənab Prezident, Sizə daha çox güc və dəyanət, Azərbaycan dövlətinə sülh və tərəqqi arzulayırıq.

**Hörmətlə,**

***Müfti İsmayıl-Hacı BERDİYEV,***
***Şimali Qafqaz Müsəlmanlarının***
***Əlaqələndirmə Mərkəzinin sədri***

# “Azərbaycan Respublikasında ipoteka kreditləşməsinin bəzi məsələləri haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 22 iyun tarixli 940 nömrəli Fərmanında dəyişiklik edilməsi barədə

## *Azərbaycan Respublikası Prezidentinin Fərmanı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** “Azərbaycan Respublikasında ipoteka kreditləşməsinin bəzi məsələləri haqqında” Azərbaycan Respublikası Prezidentinin 2016-cı il 22 iyun tarixli 940 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2016, № 6, maddə 1036; 2017, № 4, maddə 526, № 7, maddələr 1340, 1370, № 8, maddə 1521, № 12 (I kitab), maddə 2328; 2018, № 5, maddə 900, № 9, maddə 1825; 2019, № 1, maddə 58, № 4, maddə 618; 2020, № 5, maddə 541; 2021, № 5, maddə 435; 2022, № 2, maddə 102, № 8, maddə 841, № 11, maddə 1263) 9.6-cı bəndi ləğv edilsin.

**2.** Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

**Bakı şəhəri, 19 may 2023-cü il**

# Ədliyyə naziri Daşkənddə Beynəlxalq Forumda





**Mayın 17-18-də Özbəkistanın paytaxtı Daşkənd şəhərində “Fundamental hüquqlar əbədi dəyərlər kimi” mövzusunda III Daşkənd Hüquq Baharı Beynəlxalq Forumu keçirilib. Dünyanın 20 dövlətindən 700-dək nümayəndənin qatıldığı forumda Azərbaycanın ədliyyə naziri Fikrət Məmmədov nümayəndə heyəti ilə iştirak edib.**

Plenar sessiyada çıxış edən ədliyyə naziri F.Məmmədov Özbəkistanda keçirilən mötəbər forumun müsbət təcrübələrin mübadiləsi və ikitərəfli əlaqələrin genişləndirilməsi baxımından mühüm əhəmiyyətini qeyd edib.

Bildirib ki, ölkəmizdə insan hüquqlarının təminatı müstəqil dövlətimizin banisi Ümummilli Lider Heydər Əliyev tərəfindən dövlətimizin ali məqsədlərindən biri kimi bəyan edilib.

Nazir BMT-nin 2030-cu ilədək Dayanıqlı İnkişaf Məqsədlərinin əsas hədəflərindən olan insan hüquqlarının və qanun aliliyinin təminatında müstəqil məhkəmə hakimiyyətinin mühüm rolunu qeyd edərək Prezident İlham Əliyevin rəhbərliyi ilə bu sahədə aparılan mütərəqqi islahatlar, ədliyyə və məhkəmə fəaliyyətində rəqəmsal innovasiyaların tətbiqi, əhaliyə keyfiyyətli dövlət xidmətlərinin göstərilməsi barədə ətraflı məlumat verib.

Həmçinin yüksək texnoloji müasir məhkəmə infrastrukturunun yaradılması, “Elektron məhkəmə” sisteminin tətbiqi, hakimlərin ən şəffaf seçimi, dövlətimizin humanizm siyasəti, məhkumların saxlanma şəraitinin yaxşılaşdırılması, fəaliyyətin digər sahələrində də müasir texnologiyaların, o cümlədən, elektron nəzarət vasitələrinin geniş tətbiqi, “Dünyanın Ən Qabaqcıl Dövlət Xidməti” kimi qiymətləndirilən “ASAN xidmət”in səmərəli fəaliyyəti maraqla qarşılanıb.

Forum çərçivəsində, həmçinin Özbəkistan, Qırğızıstan, Sinqapur və digər ölkələrin ədliyyə orqanlarının və beynəlxalq təşkilatların rəhbərləri ilə görüşlər keçirilərək faydalı danışıqlar aparılıb.

Səfər zamanı özbəkistanlı həmkarla Ədliyyə Nazirliyində keçirilmiş görüşdə hər iki dövlətdə həyata keçirilən ədliyyə islahatları və tətbiq olunan yeniliklər barədə faydalı fikir mübadiləsi aparılıb, ikitərəfli əlaqələrin inkişafına maraq göstərilib.

Əldə olunan razılığa əsasən Azərbaycan və Özbəkistan Ədliyyə nazirlikləri arasında konkret tədbirləri nəzərdə tutan yeni Əməkdaşlıq Proqramı imzalanıb.

***Qəzənfər QASIMOV,***
***“Xalq qəzeti”***

# Ceyhun Bayramov rusiyalı həmkarı ilə görüşüb

**Mayın 19-da Azərbaycan Respublikasının Xarici İşlər naziri Ceyhun Bayramov Rusiya Federasiyasına işgüzar səfəri çərçivəsində bu ölkənin xarici işlər naziri Sergey Lavrov ilə görüşüb.**



Görüş zamanı Azərbaycan–Rusiya ikitərəfli əməkdaşlıq əlaqələri, Azərbaycanla Ermənistan arasında normallaşma prosesinin cari vəziyyəti və perspektivləri müzakirə olunub.

Nazir Ceyhun Bayramov Azərbaycanın Ermənistanla sülh prosesinin əsas elementlərinin təşəbbüskarı kimi, bölgədə sülhün və sabitliyin bərqərar edilməsində maraqlı olduğunu, sülh sazişinin razılaşdırılmasının və imzalanmasının əhəmiyyətini vurğulayıb.

Eyni zamanda, Azərbaycan tərəfi normallaşmanın digər istiqamətləri, belə ki, Azərbaycanla Ermənistan arasında ikitərəfli əsasda sərhədin delimitasiyası üzrə danışıqlarda, eləcə də nəqliyyat-kommunikasiyaların açılması prosesi üzrə Azərbaycanın mövqeyini qarşı tərəfin diqqətinə çatdırıb.

Nazir, eyni zamanda, Azərbaycanın ərazi bütövlüyünə və suverenliyinə, habelə Ermənistan tərəfindən qəbul edilmiş öhdəliklərə zidd olaraq erməni silahlı qüvvələrinin hələ də tam olaraq Azərbaycan ərazisindən çıxarılmamasının ciddi təhdid mənbəyi olduğunu vurğulayıb.

Tərəflər qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# Emin Əmrullayev İrakli Qaribaşvili ilə görüşüb



**Tbilisidə səfərdə olan Azərbaycanın elm və təhsil naziri mayın 19-da Gürcüstanın Baş naziri ilə görüşüb. Bu barədə Elm və Təhsil Nazirliyindən xəbər verilib**

Görüşdə ölkələrimiz arasındakı dostluq və qardaşlıq münasibətləri diqqət mərkəzində olub. Söhbət zamanı, müxtəlif sahələrdə, o cümlədən elm və təhsil sahəsində mövcud əməkdaşlığın inkişaf perspektivləri haqqında fikir mübadiləsi aparılıb. Bu xüsusda, iki ölkənin elm və təhsil qurumları arasında 2022-ci ildə imzalanmış sazişin əhəmiyyəti qeyd edilib.

Tərəflər gələcəkdə iki ölkə arasında elm və təhsil sahəsində mövcud məhsuldar əməkdaşlığın daha da genişlənəcəyinə və möhkəmlənəcəyinə ümidvar olduqlarını vurğulayıblar.

Söhbət zamanı Azərbaycanın ADA Universiteti ilə Gürcüstanın üç aparıcı təhsil ocağı arasında imzalanan müqavilələrin əhəmiyyəti xüsusi qeyd olunub.

Görüşdə ADA Universitetinin rektoru Hafiz Paşayev, Azərbaycanın səfiri Faiq Quliyev və Gürcüstanın təhsil və elm naziri Giorgi Amilaxvari iştirak ediblər.

***“Xalq qəzeti”***

# Moskvada Ceyhun Bayramov və Ararat Mirzoyan arasında danışıqlar aparılıb

**Mayın 19-da Rusiya Xarici İşlər naziri Sergey Lavrovun dəvəti ilə Moskvada Azərbaycan Respublikası Xarici İşlər naziri Ceyhun Bayramov və Ermənistanın xarici işlər naziri Ararat Mirzoyan arasında danışıqlar aparılıb.**

Xarici İşlər Nazirliyindən bildirilib ki, nazir Ceyhun Bayramov və Ararat Mirzoyan Azərbaycan, Ermənistan və Rusiya liderlərinin üçtərəfli bəyanatlarının icrası ilə bağlı mövqelərini təqdim ediblər.

Tərəflər “Sülh və dövlətlərarası münasibətlərin qurulması haqqında” saziş layihəsi üzərində işi davam etdiriblər. Tərəflər arasında hələ də fikir ayrılıqlarının mövcud olduğu mövzular ətrafında konstruktiv fikir mübadiləsi aparılıb.

Nazirlər Azərbaycan və Ermənistan arasında danışıqların təşkilinə görə Rusiya tərəfinə minnətdarlıqlarını bildiriblər. Tərəflər müzakirələri davam etdirmək barədə razılığa gəliblər.

Nazirlər, həmçinin Rusiyanın xarici işlər naziri Sergey Lavrovla da ayrıca görüşlər keçiriblər.

***“Xalq qəzeti”***

# Sülhün may raundu: Moskva. 19 və 25 may

## Harada, nə vaxt və kimin təşəbbüsü ilə keçirilməsindən asılı olmayaraq, Bakı danışıqlar prosesinin müsbət sonluqla bitəcəyinə və sülh sazişinin imzalanacağına əmindir

**İrəvan və Bakı arasında ikitərəfli, üçtərəfli dialoqun təşəbbüs və təşkilatçılarının bu operativliklə dəyişməsi, ilk baxışda, Vaşinqtonun təşəbbüsü könüllü şəkildə Moskvaya ötürməsi təəssüratını yarada bilər. Əslində, ABŞ Dövlət Departamentinin sözçüsünün müavini Vedant Patelin XİN başçılarının Moskva təmaslarından bir gün əvvəl brifinqdə İrəvan və Bakı arasında dialoqun perspektivi ilə bağlı verdiyi açıqlaması bu təəssüratın doğruluğunu təsdiqləyən kimi görünür: "ABŞ danışıqların harada getməsindən asılı olmayaraq, Azərbaycan və Ermənistan arasında birbaşa dialoqu dəstəkləyir". Amma birbaşa dialoqun növbəti iki raundunun Kremlin eqidası altında keçirilməsi heç də o demək deyil ki, Qərb sülh təşəbbüslərindən və buna söykənən bölgədəki maraqlarından asanlıqla vaz keçib. Bu, dediyimiz kimi, sadəcə, görüntüdür. Çünki sülh danışıqlarının 2023-cü ilin iyun, iyul və oktyabr aylarında növbəti üç raundunun Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişelin təklifi ilə Kişinyov, Brüssel və Qranadada keçiriləcəyi indidən dəqiqləşdirilib.**





### Lavrov nikbin görünür

"İnanırıq ki, liderlərimiz arasında əldə olunmuş razılaşmalara alternativ yoxdur. Vəziyyətin sabitləşməsi ilə bağlı qərarların icrasını təmin etmək üçün əlimizdən gələni edəcəyik. Ümid edirəm ki, bu və ya digər şəkildə bu regionda iştirak etməkdə maraqlı olan bütün digər ölkələr onlara hörmətlə yanaşacaqlar". Rusiyanın baş diplomatı Sergey Lavrov bu sözləri dünən Moskvada Azərbaycan Xarici işlər naziri Ceyhun Bayramov və Ermənistan XİN-in rəhbəri Ararat Mirzoyanla görüşündə deyib.

Ermənistan–Azərbaycan şərti sərhədində vəziyyətin sabitləşdirilməsinin vacibliyini vurğulayan S.Lavrov "Humanitar problemlərin həlli, iqtisadi və nəqliyyat əlaqələrinin açılması, hər iki tərəfin fəal işlədiyi sülh müqaviləsinin mətninin razılaşdırılmasına zərurət var. Buraya ekspertlər, ictimai təşkilatlar və parlamentarilər vasitəsilə əlaqələrin inkişaf etdirilməsinin vacibliyini də əlavə edərdim. Daha əvvəl belə bir təcrübə var idi. Hesab edirəm ki, bu, tərəflər arasında etimadın yaradılmasında əlavə addım kimi çox vacibdir", – deyə bildirib. S.Lavrovun kifayət qədər nikbin notlara köklənmiş açıqlaması Kremlin sülh prosesində rəsmi və əsas vasitəçi kimi bu missiyanı sonadək davam etdirmək istəyindən xəbər verir.

Azərbaycan, Rusiya və Ermənistan xarici işlər nazirlərinin üçtərəfli görüşündən sonra mediaya açıqlama verən S.Lavrovun sözlərinə görə, danışıqların ayrıca mövzusu sülh müqaviləsidir: "Tərəflər bunun üzərində işləməyə başlayıblar və hazırda, o, digər vasitəçilərin də iştirakı ilə fəal şəkildə müzakirə olunur. Ermənistan və Azərbaycan nazirləri Vaşinqtona səfər ediblər, Ermənistan və Azərbaycan liderləri bir həftə əvvəl Brüsseldə olublar. Sülh müqaviləsi üzərində iş, əlbəttə ki, fundamental məsələdir. Amma bizim tərəfdaşlarımız bu gün təsdiqləyiblər ki, delimitasiya məsələləri həll edilmədən, nəqliyyat və kommunikasiya əlaqələri açılmadan sülh müqaviləsinin konkret aspektləri üzrə irəliləmək çətindir".

S.Lavrov, həmçinin qeyd edib ki, gələn həftə baş nazir müavinlərinin rəhbərliyi altında üçtərəfli qrupun nəqliyyat kommunikasiyalarının açılması məsələlərinə dair görüşü keçiriləcək: "Ümid edirik ki, yekunda müsbət nəticə əldə olunacaq. Tərəflər artıq yekun razılaşmaya yaxındırlar".

### Paşinyan reallığa bir az da yaxınlaşdı

Moskva görüşündən bir gün əvvəl hökumətin iclasında çıxışı zamanı mayın 14-də Brüsseldə üçtərəfli görüşdə əldə olunmuş razılaşmaların önəmindən danışan Ermənistan baş naziri Nikol Paşinyan istəyini belə dilə gətirib: "Bölgədə sülhün və sabitliyin bərqərar olması üçün Ermənistanla Azərbaycan arasında sülh sazişinin mətnini dəqiqləşdirmək və sərhədlərin delimitasiyasını aparmaq çox vacibdir".

Hayların baş naziri bu dəfə, nədənsə, "Qarabağ ermənilərinin öz müqəddəratını təyinetmə hüququndan", ikitərəfli danışıqların bu hissəsinə "beynəlxalq institutların cəlb olunmasından" danışmayıb. Yəqin son vaxtlar bir qədər realist və praqmatik fikirləri ilə diqqəti çəkən Paşinyan Bakının heç vaxt buna yol verməyəcəyini, bu xüsusda, son və qəti mövqeyini çoxdan ortaya qoyduğunu nəzərə alaraq, yersiz cəhdlərdən əl çəkməyi qərarlaşdırıb. Təki dediyimiz kimi olsun. Danışıqların bu mərhələsində irrasional təkliflərə vaxt ayırmaq əbəsdir.

**Milli Məclisin deputatı, politoloq Rasim Musabəyov** Kremlin təşəbbü-



sü ilə dünən xarici işlər nazirləri səviyyəsində baş tutan, mayın 25-də isə dövlət başçılarının qatılacağı üçtərəfli sülh danışıqlarının Moskva formatında konkret hansısa qərarın qəbul ediləcəyini gözləmədiyini vurğulayıb:

***"Öncə onu qeyd edək ki, Vaşinqton Azərbaycan və Ermənistan arasında sülh dialoqu ilə bağlı Avropa İttifaqı, konkret olaraq, Şarl Mişelə yaxından əməkdaşlıq edir. Moskva isə özü təşəbbüs göstərir. Bu gün iki ölkənin xarici işlər nazirləri mayın 25-nə təyin edilmiş liderlərin görüşünə hazırlıq işlərini görürlər və müzakirələr də bununla bağlıdır. Amma həmin üçtərəfli danışıqlarda hansısa sənədin imzalanacağını güman etmirik. Sadəcə olaraq, həm Bakı, həm də İrəvan daha çox ABŞ-ın və Avropa İttifaqının dəstəyi ilə sülh prosesinin irəli aparıldığına əmin olduqları vəziyyətdə Moskvanın yeri dəqiq müəyyənləşməlidir".***

Tanınmış politoloq münaqişənin nizamlanmasının indiki mərhələsində Moskvanın yerinin və oynadığı rolunun dəqiqləşdirməyə ehtiyac duyulduğunu xüsusi olaraq önə çəkir:

***"Rusiya bölgədədir, burada özünün sülhməramlı kontingenti saxlayır. Yəni, rəsmi Moskva Qərb ölkələrindən fərqli olaraq, Zəngəzur dəhlizi və Laçın yolu ilə, eləcə də şərti sərhəddəki son vəziyyətlə bağlı regionda mövcuddur. Düşünürük ki, sülh prosesini irəliyə aparmağa real səylər göstərən Qərb Rusiyanın bu geosiyasi müstəvidə rolunu dəqiqləşdirmək və təşəbbüsü ələ almaq istəyir. Həm də bu səbəbdən Moskvada sülhlə bağlı sənədin imzalanacağını gözləmirəm".***

### Uğurun bizim tərəfimizdə olacağı şəksizdir

Cənubi Qafqazda postmüharibə dövrünün yaratdığı vəziyyətin sanki dünya güclərinin müzakirə predmetinə çevrildiyini vurğulayan tanınmış politoloq Fikrət Sadıxov bu güclərin sülh sazişinin imzalanmasında maraqlı ola biləcəyini də istisna etmir:

***"İndi hər bir güc öz maraqları çərçivəsində hərəkət edir. Bu maraqlar isə müxtəlif olduğu qədər də bir-birinə ziddir. Misal üçün, Moskva Vaşinqtonda və Brüsseldə təşkil olunan sülh dialoqundan çox narazıdır və düşünür ki, Qərb ölkələri bölgəyə müdaxilə etməməlidir. Kreml özünü əsas oyunçu hesab edir və 2020-ci il 10 noyabr tarixli Bəyanatın yalnız onun vasitəçiliyi ilə imzalandığını, atəşkəsin əldə olunduğunu bildirir. Yəni, özünün sülhməramlı qüvvələrini yerləşdirdiyi bölgədə kənar güclərin hansısa rolu oynamağa, dialoq təşəbbüsünü irəli sürməyə ixtiyarı yoxdur. Bunu həm Rusiyanın baş diplomatı Lavrov, həm də onun sözçüsü Zaxarova dəfələrlə bəyan edib".***

Politoloq F.Sadıxov indiki şəraitdə Moskvanın tərəflər arasında sülh sazişinə yaxın, yaxud sazişin mətni üzrə ən azı şifahi hansısa razılaşmanın əldə olunmasına çalışdığını ehtimal edir. Kremlin təşəbbüsü əldən verəcəyindən



ehtiyat etdiyini bildirən və bu riskin real olduğuna diqqəti çəkən siyasi şərhçi Azərbaycanın bütün hallarda udan tərəf olacağına inandığını deyir:

***"Mövcud vəziyyətdən biz də yararlanırıq. Bakı kifayət qədər düşünülmüş diplomatik addımlara, hücum taktikasına köklənib. Artıq bəzi məsələlərin müzakirəsində müəyyən uğurlar qazanmışıq. Paşinyanın Azərbaycanın ərazi bütövlüyünü tanıması məhz diplomatik təzyiqin nəticəsidir".***

Aydın məsələdir ki, dünən xarici işlər nazirləri səviyyəsində keçirilən Moskva müzakirələri Ermənistan baş naziri Nikol Paşinyan və Azərbaycan Prezidenti İlham Əliyev arasında mayın 25-nə planlaşdırılmış üçtərəfli görüşün diplomatik preambulasıdır. Bakının sülh dialoqunun Kremlin evsahibliyi edəcəyi qarşıdakı raundundan da müsbət nəticələrə imza atmaqla çıxacağına indidən əminik.

***İmran BƏDİRXANLI,***
***"Xalq qəzeti"***

# İrəvanda yenə "qaydasız döyüş" havası duyulur

**Hayastanın paytaxtında əks-qütblərdəki qüvvələrin bir ay əvvəlki qarşıdurması barədə "İrəvanda ara qarışıb, məzhəb itib" sərlövhəli məqalə yazmışdıq. Bu gün yalnız məzhəblərini deyil, həm də başlarını itirmiş hayların bir-birinə qarşı ittihamları, az qala, "rinq razborkaları"nı xatırladır.**



Daxili ehtirasların coşduğu ölkədə baş nazir Nikol Paşinyanın özünə və hökumətinə qarşı çıxanları bir neçə istiqamətdə qruplaşdırmaq mümkündür. Bunlar əsasən "məxməri inqilab" nəticəsində yüksək vəzifələri itirən və Paşinyanın əlindən yanıqlı olan "ekslər", vaxtilə indiki hakim komandada olub sonra yolların ayıranlar (məsələn, milli təhlükəsizlik xidmətinin direktoru Artur Vanetsyan), övladları İkinci Qarabağ müharibəsində həlak olanların valideynləri və yaxınları (rəsmi İrəvan müharibədə 3781 nəfəri itirdiyini bildirir, reallıqda isə bu rəqəm dəfələrlə böyükdür), müharibə tərəfdarı olan, Paşinyanı xain hesab edən revanşistlər, Qarabağ klanı və ənənəvi müxalifətdir.

Ermənistanda revanşistlərin getdikcə güclənməsi bir reallıqdır. Onlar xüsusilə, N.Paşinyanın Azərbaycanın 86,6 min kvadratkilometrlik ərazi bütövlüyünü tanıması ilə bağlı verdiyi bəyanatlardan sonra aktivləşiblər. Bu xüsusda, mayın 19-da Hindistanın ölkəmizdə yeni təyin olunan fövqəladə və səlahiyyətli səfiri Sridharan Madhusudhananın etimadnaməsini qəbul edərkən, Azərbaycan Prezidenti İlham Əliyevin səsləndirdiyi fikirlər maraq doğurur. Dövlətimizin başçısı bildirib ki, bu gün Ermənistanda revanşist qüvvələr baş qaldırmaqdadır, ölkəmizə qarşı ərazi iddiaları davam edir. Ermənistanın sürətlə silahlanmasının yeni təhlükələr yaratdığını deyən cənab İlham Əliyev qeyd edib ki, əgər doğrudan da, Ermənistan Azərbaycan ilə sülh istəyirsə onda nə üçün 100 milyonlarla dollar dəyərində silah alır. Azərbaycan Prezidenti vurğulayıb ki, bu siyasət bölgə üçün yeni təhdidlərə gətirib çıxara bilər.

***

Mayın 18-də Ermənistanın və Qarabağın 30-dan çox "siyasi qüvvəsi"nin birgə bəyanatla çıxış etməsi də təsadüfi sayılmamalı və revanşistlərin güclənməsinin göstəricisi hesab olunmalıdır. Onlar bəyanatda bildiriblər ki, hazırkı geosiyasi şəraitdə təzyiq və təhdid altında Ermənistan–Azərbaycan danışıqlarının süni şəkildə (?) sürətləndirilməsi erməni xalqının maraqlarına uyğun deyil. Nikol Paşinyanın isə Ermənistan–Azərbaycan münasibətlərinin nizamlanması ilə bağlı razılaşmalar əldə etmək və vədlər vermək səlahiyyəti yoxdur (?). Görün, revanşistlər necə həddlərini aşıblarsa, 2021-ci ilin iyununda növbədənkənar parlament seçkilərində seçicilərin 54 faizinin səsini, qanunverici orqanda 71 deputat mandatı qazanaraq baş nazir seçilən şəxsin Azərbaycanla razılaşma əldə etmək səlahiyyətinin olmadığını iddia edirlər.

İmzalanan bəyanatda əli günahsız azərbaycanlıların qanına batmış Robert Koçaryanın başçılıq etdiyi, parlamentdə 27 deputat yerinə malik "Hayastan" alyansının (alyansda "Daşnaksütyun" və "Dirçəlan Ermənistan" partiyaları birləşib) adının ilk sırada yazılması bu bəyanatın hazırlanma təşəbbüsünün haradan gəldiyini bəlli edir. Üstəlik, siyahıda siyasi qüvvələrin say çoxluğunu təmin etmək üçün Erməni İnqilabi Federasiyası – "Daşnaksütyun" partiyasının adı təmsil olunduğu blokdan ayrı yazılıb.

Ancaq N.Paşinyan və onun silahdaşları da az aşın duzu deyil. Baş nazirin rəhbərlik etdiyi "Vətəndaş razılaşması" partiyasından olan deputat Akop Aslanyan "Daşnaksütyun"un fəaliyyətinin qadağan olunması təşəbbüsü ilə çıxış edib. Onun sözlərinə görə, "Daşnaksütyun" Ermənistanın müxtəlif rayonlarındakı yerli təşkilatlarını buraxıb. A.Aslanyan bunu dürüstlük kimi qiymətləndirib. Qeyd edib "Daşnaksütyun"un fəaliyyət göstərməsi üçün qanuni əsaslar yoxdur: "Partiyalar haqqında" qanuna əsasən, bu təşkilatın fəaliyyəti qadağandır".

A.Aslanyan deyib ki, partiya fəaliyyətini bərpa etmək üçün qurultay keçirməlidir, ancaq daşnaklar bunu etməyiblər: "Daşnaksütyun" anti-erməni təşkilat olduğuna görə, fəaliyyətinin dayandırılması zəruridir. Bunu yalnız mən demirəm, tanınmış insanlar da bu fikirdədirlər. Biz bu təşkilatın bağlanması üçün prosesə başlamaq niyyətindəyik. Hətta, bizim bu təşəbbüsümüz uğursuz olsa belə, "Daşnaksütyun" bir neçə ildən sonra ölü partiya kimi siyasi səhnəni tərk edəcək".

O, "Daşnaksütyun" partiyasını xaricə casusluqda ittiham edib və bununla bağlı əlavə araşdırmalar apardığını, materiallar topladığını da deyib. Yeri gəlmişkən, qeyd edək ki, 1994-cü ilin dekabrın 28-də Ermənistanın ilk prezidenti Levon Ter-Petrosyanın sərəncamına əsasən, siyasi partiyalar haqqında qanunu pozduğu üçün "Daşnaksütyun"un fəaliyyəti qadağan olunub. Ter-Petrosyanın devrilməsindən sonra Robert Koçaryan daşnakları yenidən siyasi səhnəyə qaytarıb.

***

Revanşistlərin fəallaşması fonunda Ermənistanda baş verən digər hadisə – N.Paşinyanın oğlunun oğurlanmasına cəhd olayı da diqqətdən qaçmır. Bu insident Ermənistan cəmiyyətində qütbləşmənin səviyyəsindən və revanşist düşərgənin açıq-aşkar radikallaşması prosesindən xəbər verir. Yeri gəlmişkən qeyd edək ki, bütün erməni cəmiyyəti bu və ya digər dərəcədə revanşizmdən əziyyət çəkir. Olay Ermənistanın siyasi həyatında terrorizmdən istifadənin "zəngin ənənələrə" malik olmasının da göstəricisidir. Aşəta məhz atasının Qərbdə – İslandiyada olduğu vaxtda və ictimaiyyət qarşısında Azərbaycanın 86,6 min kvadratkilometr ərazisini tanıdığını bəyan etdiyi vaxtda, habelə mayın 25-də Moskvada gözlənilən növbəti üçtərəfli görüş ərəfəsində hücum təsadüfə oxşamır və daha çox Ermənistan baş nazirinin özü üçün təhdid siqnalıdır.

Paralel olaraq Qarabağ iqtisadi rayonunda Rusiya sülhməramlılarının müvəqqəti məsuliyyət zonasında "proseslər" vüsət alır. Hansısa qüvvələr tərəfindən burada son günlər Ruben Vardanyanın müqəvvasının yenidən aktivləşdirilməsinə çalışılır. Qondarma rejimin keçmiş "təhlükəsizlik şurasının katibi" Samvel Babayan fəallaşıb, Arayik Arutyunyanın "istefası" ilə bağlı təşəbbüs başladılıb, sosial şəbəkələr qismən bloklanıb. Ancaq İrəvan və Xankəndidəki proseslərdən asılı olmayaraq, bu bölgədə həlledici faktor Azərbaycandır. Ermənistan tərəfinin atacağı sonrakı addımlar (o cümlədən, xarici təsirlər altında) Bakının bundan sonrakı addımlarının mahiyyətinə deyil, formasına təsir edə bilər. Və bu mahiyyət Prezident İlham Əliyevin bir neçə il önceki məşhur ifadəsində ehtiva olunub: Qarabağ Azərbaycandır!

***Səxavət HƏMİD, "Xalq qəzeti"***

*Ekspert rəyi*



**Züriyə QARAYEVA,**
**siyasi şərhçi**

– Ermənistanda daxili qarşıdurmaların yaşanması gözlənilən idi. Çünki bu ölkə tamamilə dalana dirənmiş vəziyyətdədir. Paşinyan 2021-ci ildə müəyyən vədlər verərək növbədənkənar seçkidə qalib gələ bildi. Zənnimcə, qarşıdurmalarda bir səbəb verilən vədlərin yerinə yetirilməməsidir. Haylar artıq Azərbaycanla münasibətlərlə bağlı da Paşinyana suallar verməyə başlayıblar. Onun Azərbaycanın ərazi bütövlüyü ilə bağlı bəyanatlarından sonra daxildə ehtiraslar daha da qızışıb. Sülh müqaviləsinin imzalanması həm də sərhədlərin delimitasiyası deməkdir. Bu isə Hayastanın daha çox ərazi itkisinə məruz qalmasıdır. Hazırkı etirazlar onların təbirincə desək, Paşinyanın yarıtmaz siyasəti ilə bağlıdır.

Digər tərəfdən, Paşinyan hər nə qədər Qərbə yönəlik siyasət yürütsə də, Rusiyanın asılılığından faktiki olaraq qurtula bilmir. Ona görə də Paşinyan, sanki, iki od arasında qalaraq çapalayır. Rusiyayönümlü qüvvələr Paşinyanın Qərbyönümlü siyasətinə qarşı çıxırlar. Nəticə etibarilə baş nazirə qarşı daha geniş cəbhə yaranır və siyasi qüvvələr arasında ziddiyyətlər kəskinləşir.

# Erməni siyasi riyakarlığı – indiki baş nazir sabiq baş nazir qiyafəsində

## Yaxud Paşinyan – Manukyan tipologiyası

**Azərbaycan cəmiyyəti Cənubi Qafqazda vəziyyətin normallaşması, Ermənistanla sülh müqaviləsinin imzalanması mövzusunda söhbət düşərkən, istənilən an özünü göstərə biləcək erməni məkri və hiyləsini nəzərə alır. Cəmiyyətimiz 44 günlük müharibədən sonra baş nazir Nikol Paşinyan administrasiyasının sülh gündəliyini pozmaq potensialı üzərində dayanır. Ən əsası isə insanlarımızda İrəvanın Bakı ilə danışıqları vaxt udmaq və güclənmək üçün manipulyasiya alətinə çevirdiyi qənaəti var.**



Vaxt udmaqdan söz düşmüşkən, 2018-ci ildə N.Paşinyan hakimiyyətə gələndə ölkəmizin rəhbərliyinə o zamanadək donmuş vəziyyətdə olan Azərbaycan–Ermənistan danışıqlarının davamını vəd etmiş, müəyyən pozitiv mesajlar verərək, elə fon yaratmışdı ki, sanki konstruktiv davranmağa hazırdır. Buna inanmışdıq. Çünki Nikol hələ seçki kampaniyası zamanı özündən öncəki iqtidarı sərt tənqidə məruz qoyarkən, Qarabağın Ermənistana böyük yük olduğunu və ölkənin inkişafına ciddi maneçilik törətdiyini vurğulamışdı. Eynilə birinci prezident Levon Ter-Petrosyan kimi...

...Həmin vaxt Paşinyanın bu sayaq fikirləri cəmiyyətdə böyük populyarlıq qazanmışdı. Hər halda, Qarabağ mövzusu erməni cəmiyyəti üçün "qırmızı xətt" olsaydı, çox güman, Nikola etimad göstərilməzdi. Yəni, Petrosyanın postundan istefa verməsi reallığını doğurmuş baxış Paşinyanı hakimiyyətə gətirmişdi. Bəli, Nikola etimad göstərildi və o, Bakıya sülh gündəliyinə dair pozitiv ismarıcların məhz xalqın mandatına arxalanaraq ünvanladı. Lakin müəyyən vaxt udub kresloda möhkəmləndikdən sonra "Qarabağ Ermənistandır, nöqtə" bəyanatını səsləndirdi. Cıdır düzündə "Yallı" getməsi, Şuşada şərab içib sərxoş olması da öz yerində.

Çox uzağa getməyək, Paşinyan mayın 14-də Azərbaycanın ərazi bütövlüyü ilə razılaşır və sonra Avropa Şurasının Reykyavik Sammitində bunu açıqca bəyan edir. Daha sonra isə Ermənistana məxsus pilotsuz uçuş aparatları Azərbaycan səmasında görünərək, sanki gələcək müharibənin məşqini gerçəkləşdirir.

Belədə, əlbəttə, İrəvana inamımız olmaz. Ancaq siyasət elə bir şeydir ki, bəzən, necə deyərlər, bıçağın sümüyə dirəndiyi anı da gözləməli, ən sonda hərəkətə keçməlisən ki, kimlərsə əks iddia irəli sürməsin. Bu meydanda ayrı-ayrı tərəflərin fikir və düşüncələrini də nəzərdən keçirmək şərtdir.

***

Ermənistanda elə qüvvələr var ki, onlar aktiv, yəni, belə demək mümkünsə, rəsmi siyasətdən uzaqdırlar və belələrinin səsləndirdiyi fikirlərdə erməni məkrinin iç üzünü görmək mümkündür. Bir qədər düşünsək, aydın olacaq ki, Ermənistan hakimiyyəti, faktiki olaraq, bu qüvvələrin təmsilçilərinin dildə səsləndirdiklərini, az və ya çox dərəcədə real işə müstəvisinə gətirməklə məşğuldur.

Əlqərəz, Ermənistan siyasətində hiyləni, riyakarlığı və məkri ortaya qoyanlardan biri də ölkənin birinci baş naziri, hələ ötən əsrin 80-ci illərinin sonlarında ermənilərin azərbaycanlılara qarşı təcavüzünün "ideoloqlarından" sayılan Vazgen Manukyandır.

Manukyan yerli mediaya müsahibəsində Azərbaycan və Ermənistan liderlərinin Avropa İttifaqı Şurasının rəhbəri Şarl Mişelin vasitəçiliyi ilə reallaşmış danışıqlarından və əldə edilmiş razılaşmadan söhbət açarkən, əvvəlcə anklavlar məsələsinə toxunub və bildirib ki, əgər bu ərazilər əldən getsə, o zaman Azərbaycan tarixi torpaqlarına iddia etmək imkanı qazanacaqdır. Onun qopardığı və bütövlükdə, hazırkı Ermənistan cəmiyyətinə xas isteriyanın daha bir əlaməti də özünü iki Cənubi Qafqaz ölkəsi arasında imzalanması nəzərdə tutulan sülh müqaviləsi kontekstində göstərib. Manukyan deyib ki, əgər sözügedən müqavilə indiki şərtlər altında imzalansa, bu, Qarabağın Ermənistan düşüncəsindəki məhvi olacaq və Azərbaycan yeni müharibəyə başlamaq üçün fürsət qazanacaq.

Namərd fürsətçiliyə və işğalçılıq mahiyyətinə köklənmiş V.Manukyan tipik erməni xislətinə xas xüsusiyyətləri isə bu fikrində tam çılpaqlığı ilə ortaya qoyub: "Türkiyə və Azərbaycanla bütün şifahi razılaşmalara məhəl qoymamaq, vaxt udmaq, güclənmək və gözlənilən yeni dəyişikliklərə hazırlaşmaq vacibdir".

Sabiq baş nazir milli həmrəylik, birlik və etimad kimi populist fikirlər səsləndirməklə yanaşı, onu da bildirib ki, ordunu yenidən formalaşdırmaq və təbii müttəfiqlərlə yüksək səviyyəli münasibətlər qurmaq mütləqdir. Yəni, əsas məqsəd Azərbaycana qarşı müharibəyə başlamaqdır...

Manukyan diqqətə çatdırdığı "platformanı" Paşinyanın deyil, yalnız ölkədə yeni qurulacaq hökumətin həyata keçirməsinin mümkünlüyü üzərində dayanır. Amma fərqinə varmır, ya da varmaq istəmir ki, Paşinyan administrasiyası da təxminən onun dediyi yolla gedir. Axı, indiki baş nazirin də erməni qanı daşıyan şəxs kimi, keçmiş baş nazirdən fərqli düşünməsi, sadəcə mümkünsüzdür. Burada birincinin öz düşüncəsini və ənənəvi mənfur xislətini maskalayan demokrat kamuflyaja malikliyi, ikincinin anti-demokratik mühitin və pas tutmuş köhnəliyin rəmzi olması heç bir anlam daşımır...

Bəli, Manukyan Azərbaycanın bölgədəki vəziyyətin dəyişməsindən çəkindiyini və buna görə təlaşdiyini bildirir. 44 günlük müharibədə Bakının qələbəsinin, guya, təsadüf olduğunu deyən keçmiş baş nazir belə bir iddia da səsləndirir ki, hazırkı situasiyada Ermənistanla Azərbaycan arasında danışıqların gündəliyi absurd görünür. Daha sonra anti-türk ritorikasına baş vuran siyasətçinin Türkiyədəki seçkilərə köklənməsi diqqətdən yayınmır. Eləcə də beynəlxalq siyasi proseslər özünün yarımçıq təfəkkürünə xas üslubda şərh etməsi.

Ancaq Manukyanın söylədiklərində bir məqam var ki, həmin məqamın hikmət komanda da daxil, bütövlükdə, Ermənistan siyasəti istablışmentinin düşüncəsi olma reallığını nəzərə alırıq. Diqqət yetirək: "Rusiya öz maraqlarının balansını düzgün qiymətləndirib, ya yox, bunu zaman göstərəcək. Müxalifətdən prezidentliyə namizəd Kılıçdaroğlu seçilərsə, Rusiya ilə Türkiyə arasında münasibətlərin səviyyəsi xeyli aşağı düşəcək ki, bu da Moskvanı bu regiondakı siyasətinə yenidən baxmağa məcbur edəcək. Təbii ki, Türkiyə ilə Azərbaycan arasında da münasibətlər qismən dəyişəcək. Vəziyyət Azərbaycanın xeyrinə olmayacaqdır. Bu da bizim üçün faydalıdır".

Göründüyü kimi, ənənəvi müttəfiqlərə sığınmaqdan dəm vuran Manukyan da hazırkı bədbin beynəlxalq vəziyyətinə görə, Rusiyadan üz döndərmək yolu tutur. Əlbəttə, niyyətimiz onun səsləndirdiyi bütün cəfəng fikirləri diqqətə çatdırmaq deyil. Nə də sabiq baş nazirin hiyləgərliklərini tam şəkildə qabartmaq istəyindəyik. Bunun ayrıntılarına diqqət yetirməyə, sadəcə vaxtımız çatmaz. Əvvəldə vurğuladığımız mətləbi, bir növ, qüvvətləndirmək fikrindəyik.

Sözümüz ondadır ki, indiki məqamda Manukyan xəstə erməni cəmiyyətinin bariz obrazıdır. Biz zaman-zaman Ermənistanın hakim komandası tərəfindən Cənubi Qafqazda sülh gündəliyi ilə bağlı müəyyən müsbət fikirlər eşitsək də, deməliyik ki, Paşinyan administrasiyası da məhz bu xəstəlik obrazının, belə demək mümkünsə, qalstuklu, dünyaya demokrat qiyafəsində görünən təzahüründən başqa bir şey deyil. Bir daha vurğulayaq ki, manukyanların səsləndirdikləri iddialar sonradan real iş müstəvisində Ermənistan hakimiyyəti üçün prioritetə çevrilir. Yəni, həmişə olduğu kimi, yenə də qarşıdakı müddətdə bu reallığı ciddi şəkildə nəzərdən keçirməli, "Brüssel formatı"nın nikbin ovqatına çox da aludə olmamalıyıq.

***Ə.RÜSTƏMOV, "Xalq qəzeti"***

# Paşinyanın separatçılığı: Azərbaycanı tanımaq, yoxsa Qarabağı tanıtdırmaq?

## Ermənistan baş nazirinin Reykyavikdəki çıxışına üç müstəvidən baxış

**Ermənistan baş naziri Nikol Paşinyanın Avropa Şurasının İslandiyanın paytaxtı Reykyavikdə keçirilmiş sammitindəki çıxışı Azərbaycan ictimaiyyəti tərəfindən rəsmi İrəvanın ölkəmizin 86,6 min kvadratkilometr ərazidə suveren hüquqlarını tanıması kimi qarşılandı. Yəni, bu o deməkdir ki, Qarabağ da ölkəmizin ərazisi olaraq qəbul edildi. Ancaq erməni riyakarlığına köklənmiş Nikolun həmin çıxışda səsləndirdiyi digər məqamlar var.**



Əlbəttə, Paşinyanın 44 günlük müharibəni və Azərbaycanın öz torpaqlarını işğaldan azad etməsini demokratiya üzərinə hücum kimi qiymətləndirməsində, eləcə də onun beynəlxalq ictimaiyyətin bəzi dairələrinin ölkəmizə qeyri-demokratik məmləkət qismində yanaşmalarındakı qərəzli meyilləri körükləməsindən danışmayacağıq. Hər bir halda sülh gündəliyinə sadiqliyini açıqlayan Paşinyanın belə xaric "zəngulələr vurmasının" səmimiyyətdən uzaq mənzərə formalaşdırdığı aydındır. Söhbətimiz erməni baş nazirin Reykyavikdəki çıxışı müstəvisindəki üç başlıca yanaşma barədədir.

### Birinci yanaşma

Paşinyan İslandiyanın paytaxtında da Laçın dəhlizinin, guya, qanunsuz bağlandığını və bunun nəticəsində Qarabağ ermənilərinin beş aydır blokadada qaldığını bildirib. O, Qarabağa və Laçın dəhlizinə beynəlxalq faktaraşdırıcı missiyanın göndərilməsini zəruri hesab edib. Qarabağı Azərbaycan kimi tanımaq isə belə olmur. Başqa dövlətin ərazisinə hansısa beynəlxalq missiyanın göndərilməsindən danışmaq, ən azı tərbiyəsizlikdir. Nikol konkret mövqe tutmalıdır. Tutmur, həmişəki kimi nala-mıxa vurur. Amma onun manipulyativliyi təkcə bununla məhdudlaşmır.

### İkinci yanaşma

Paşinyan İslandiyanın paytaxtındakı çıxışında bildirib ki, Qarabağ ermənilərinin təhlükəsizliyini və hüquqlarını təmin etmək məqsədilə beynəlxalq himayə altında Bakı–Xankəndi danışıqlarına başlanması həyati zərurət daşıyır və Avropa Şurası bu məsələlərin həllinə kömək göstərməklə, Cənubi Qafqazda demokratiya və sabitliyin bərqərar olmasına dəstək verə bilər.

Erməni baş nazirin bu tezisində onu nisbətən anlayışla qarşılamaq üçün yalnız bir nüans var. Yəni, Nikol subliminal mesaj verə və deyə bilər ki, Qarabağ mövzusu ölkə daxilində hakimiyyətə qarşı çox ciddi əks fikirləri, aqressiv ritorikanı doğurub. Mövcud vəziyyət isə hakimiyyətə qəsb reallığını ortaya qoyur. Başqa sözlə desək, Ermənistanda qurulmasına böyük əmək verilmiş "demokratiya"nın məhv olma perspektivi var. Bu, xaricdən kömək istəməkdir.

Ancaq qeyd etdiyimiz məqamın müəyyən anlayışla qarşılanması hələ o demək deyil ki, Paşinyan ümumi erməni avantürizmini demokratiyanın müdafiəsi alətinə çevirməkdə haqlıdır. Hər halda, Bakı Ermənistanda bəşəri dəyərlərin qorunması üçün öz prinsiplərindən keçməyəcək və keçməməlidir. Deməli, Nikolun uca səslə bəyan etdiyi Bakı–Xankəndi dialoqu da qeyri-mümkündür. Yeri gəlmişkən, ölkəmiz Qarabağ ermənilərini dialoqa dəvət edir. Ancaq bu, Paşinyanın baxışındakı proses deyil...

Bəli, 86,6 min kvadratkilometr ərazidə Azərbaycanın suveren haqlarını tanıdığını deyən Paşinyan siyasi manipulyasiyadan da qalmır. Bu məntiqlə biz də 29,8 min kvadratkilometrlik ərazidə tanıdığımız Ermənistanın suveren haqlarını mübahisələndirə bilərik. Məsələn, Zəngəzurun, Göyçənin və İrəvanın tarixi Azərbaycan torpağı olduğunu, bunun sənədlərdə təsdiqləndiyini bildirib, həmin ərazilərə azərbaycanlıların qayıtmalarının beynəlxalq mexanizmlərini tələb etməklə. Əslində, mövcud istiqamətdə işə başlamışıq. Nəinki Nikol, eləcə də digər erməni ambisiozları bunu və real gücü nəzərə alsalar yaxşıdır...

Mətləbdən uzaqlaşmayaraq bildirək ki, hazırda Paşinyandan fərqli olaraq, Qarabağdakı separatçı rejim bölgəyə müstəqillikdən dəm vurur və Nikolu erməni maraqlarını satmaqda günahlandırır. Əlbəttə, ola bilər, bu sayaq deyimləri İrəvanla məsləhətləşib dövriyyəyə buraxırlar ki, Paşinyan Qarabağ ermənilərinin hansısa əlahiddə imtiyaza malik zümrə kimi rəsmiləşməsini tələb etsin. Daha doğrusu, bunun üçün xüsusi mənəvi rıçaqa malik olsun. Nəzərə alaq ki, bu təqdimat erməni avantürizmi üçün çox vacibdir.

Məlumdur ki, hazırda Bakı–Xankəndi dialoqu kimi yaramaz xüsusun beynəlxalq müstəviyə daşınması və məsələnin konkret sənəddə fiksasiya olunması gələcək separatçı meyillər üçün əsasa çevriləcəkdir. Necə ki, ötən əsrin 20-ci illərinin əvvəllərində Azərbaycan daxilində Dağlıq Qarabağ Muxtar Vilayətinin formalaşdırılması, əsrin sonlarındakı ambisiyalar üçün əsas yaratmışdı. İndi Paşinyan oxşar "təcrübəni" Avropa Şurasının ogidasına daşımağa çalışır.

Paşinyan və onun kimi özünü ağıllı sayanlar anlamalıdırlar ki, haqqında söz açdıqları ritorika uşaq başı aldatmaqdan o yana keçmir. Ölkəmizin Qarabağ ermənilərinin hüquqları və təhlükəsizlikləri ilə bağlı üzərinə götürdüyü öhdəlik Azərbaycanda yaşayan digər xalqlar və etnik qrupların hüquq və təhlükəsizliyinə dair bəşəri öhdəliklərdən heç nə ilə fərqlənməyəcəkdir. Yəni, ermənilər ya Azərbaycanın tamhüquqlu vətəndaşına çevriləcəklər, ya da rədd olub gedəcəklər. Avropa Şurası olmur, lap NATO gəlsin başqa alternativ yoxdur. Həm də ona görə yoxdur ki, beynəlxalq hüquqla tanınan Azərbaycan ərazisi var və bu ərazini baş nazirinin şəxsində Ermənistan da tanımaqdadır.

### Üçüncü yanaşma

Hesab edirik ki, bu yanaşma Ermənistanın baş nazirinin çıxışındakı digər avantürizm meyillərinin davamı kimi səciyyələndirilə bilər. Hərçənd, mövcud xüsusda üzərində dayanılmalı daha ciddi element var. Diqqət yetirək, Azərbaycanın ərazi bütövlüyünü tanıdığını deyən N.Paşinyan, bir tərəfdən, bu ərazinin tərkibində Qarabağın da olması reallığı ilə qəbullanır, digər tərəfdən, təhlükəli mahiyyət daşıyan cəfəngiyyata baş vurur. O deyir ki, ölkəsi üçüncü dövlətlər vasitəsilə Qarabağın müstəqilliyinin tanınmasına çalışacaq. Bu deyim sıfır nöqtəsinə qayıtmaqdır.

Yəni belə çıxır ki, Ermənistanın baş nazirinin danışıqlar masasında qəbul etdikləri mənasız şeylərdir. Qarabağın müstəqilliyinin üçüncü dövlətlər tərəfindən tanınması nə deməkdir? Absurddur! Bu fikir sonuncu "Brüssel formatı" çərçivəsində əldə edilmiş razılaşmaya da zidd təmayüldür. Azərbaycan belə yanaşmanı separatçılığa dəstək kimi qiymətləndirməkdə haqlıdır.

Beləliklə, xoruzun quyruğu indi görünməyə başlayır. Suallar yaranır: müstəqilliyin tanınmasına dəstəyin gücdən başqa yolu nə dərəcədə praktikdir? Yəni, elə bir xalq varmı ki, öz müstəqilliyinə qan tökmədən nail olub? Yox! Deməli, Paşinyanın "üçüncü dövlətlər" məntiqi silah-sursat aldığı İran, Hindistan və Fransadır.

Təsəvvür edin, "Brüssel formatı" çərçivəsində görüş olub, üstəlik, Paşinyan Reykyavikdə Azərbaycanın müstəqilliyini tanıyıb, bundan sonra Ermənistana məxsus pilotsuz uçuş aparatları Kəlbəcər səmasında görünüb. Bu, danışıqların sülh məntiqinə nə dərəcədə uyğundur? Hələ mayın 25-də Moskvada da Azərbaycan və Ermənistan liderlərinin Rusiya Prezidenti Vladimir Putinin vasitəçiliyi ilə keçiriləcək görüşü var. "Brüssel formatı" çərçivəsində planlaşdırılan digər görüşlər də həmçinin.

Bəli, Paşinyanın Reykyavikdə söylədiklərindən hasil olan nəticə budur ki, danışıqlar yalnız və yalnız vaxt udmağa və güclənməyə hesablanıb. Daha dəqiq desək, Azərbaycanı Ermənistanı sülhə məcbur etmədən, yeni haqlı güc tədbiqindən yayındırmağa. Göründüyü kimi, ortada kifayət qədər, mürəkkəb durum var və heç şübhəsiz, Azərbaycan dövləti də bu mürəkkəbliyi nəzərə alıb qərar qəbul edəcəkdir.

***Əvəz CAHANGİROĞLU, "Xalq qəzeti"***



# “Ucalardan uca insan”

**Əminəm ki, bizim nəslə mənsub insanların bir çoxunun Heydər Əliyev haqqında deməyə sözü var. Kitablardan oxuduqları yox, məhz xatirələri. Mən də o insanlardan biriyəm. İndiki nəsil Heydər Əliyevi kitablardan, videoyazılardan tanıyır. Mən onunla şəxsən ünsiyyətdə olmuşam. Qulağa necə də xoş gəlir, qürurverici səslənir. Yox, yox, icazə verin qürurlanım – mən onu şəxsən tanıyırdım!**

Ulu öndərlə iki dəfə görüşməyin xoşbəxtliyini yaşamışam. Bəli, mübaliğəsiz, məhz xoşbəxtlik yaşamışam.

On birinci sinfi bitirməyimə sayılı günlər qalmışdı. 1993-cü il idi. 17 yaşım hələ tamam olmamışdı. Məktəbimizin direktoru Ələkbər Quliyev şeir yazdığımı bilirdi. Bir gün məni yanına çağırdı:

– Qarşıdan Heydər Əliyevin 70 illik yubileyi gəlir. Yaxşı bir şeir yaza bilərsənmi?

Dəliqanlı vaxtlarım idi:

– Mən sifarişlə şeir yazmıram, Ələkbər müəllim, – dedim.

Tutuldu. Mən də tutuldum. Məktəbin ən fəal şagirdlərindən biri olmağımla yanaşı, nadinclərdən idim. Yaxşı tədbir hazırlamağım var idi. Yaxşı təşkilatçı idim. Amma nə edəsən ki, məktəbdə pəncərə şüşəsinin qırılması da mənim “əsərim” idi.

Dikbaşlığımın fərqinə varıb vəziyyəti düzəltmək üçün gülə-gülə tez dilləndim:

– Ələkbər müəllim, mən Heydər Əliyevə şeir həsr etmişəm.

Gözləri güldü:

– Hazırlaş, yaxın günlərdə Ali Məclisə gedəcəyik.

Sevincimin həddi-hüdudu yox idi. Sonralar mən bu unudulmaz görüş üçün Ələkbər müəllimə həmişə rəhmət oxuyacağam. Evə gələr-gəlməz səliqəli xətt ilə tələsmədən dəftərimdən şeiri ağ vərəqə köçürdüm. Heydər Əliyevə hədiyyə etməyi düşünürdüm. Məktəbi bitirmədiyimə görə pasport almamışdım. Rəsmi ad və soyadım hələ ki Səbinə Əliyeva idi. Şeirin altında imzamı qoyduqdan sonra mötərizədə təxəllüsümü – “Əlincəli” yazdım.

Günlərimi sayırdım. Nəhayət ki, həmin gün gəldi. 8 may 1993-cü il. Şuşanın işğalından düz 1 il ötürdü. Qonşumuz Qadir həkimgilin həyətindən Yaqut xalanın icazəsini aldıqdan sonra bir dəstə bənövşəyi zanbaq topladım.

Məni ilk sırada əyləşdirdilər. Çiçəkləri bərk-bərk qucaqlayıb oturmuşdum. Ulu öndər içəri daxil oldu. Onu şəxsən görmüş, onunla ünsiyyətdə olmuş insanlar birmənalı olaraq, bu faktı təsdiqləyərlər: ondan gələn enerjini. gözəgörünməz enerjini. Onun yanında sözlə izah edə bilmədiyim enerjinin dalğasını hiss edirdim. Çox fərqli idi. İlk cərgədə əyləşdiyim üçün, iclas zalı kiçik olduğundan onunla yaxın məsafədə idim. Gözlərinin rəngi, iti baxışı ovsunlayırdı. Diqqətlə mənə, qucağımdakı güllərə baxırdı. Aradan 30 il ötüb. Bu illərdə Bakıda, Sankt-Peterburqda, Naxçıvanda yaşamışam. Hələ də onun qədər xarizmatik insana rast gəlməmişəm.

Çıxışlar başladı. Qeydlər aparırdı. Arada başını qaldırıb zala baxırdı. Bir nəfər qalxdı. Kim olduğunu xatırlamıram. Şeir söylədi. Belə bir misrası var idi: “Şərqin qoca şiri Naxçıvandadır”. Şeir bitdikdən sonra Heydər Əliyev üzünü zala tutub gülə-gülə “Şir hələ qocalmayıb haaa!” – dedi. Sonunu elə intonasiya ilə uzatdı ki... O vurğuda hər şey var idi: inam, əminlik, güc. Mən onda həyatımın ilk dərsini aldım. Yumor hissinin zəka sahiblərinin ən iti silahlarından biri olduğunu anladım. Heydər Əliyevin sərrast, insanın içindən keçən çox güclü zarafatlarının gələcəkdə bütün xalqım kimi, mən də hələ çox şahidi olacaqdım. Olduqca zabitəli görünüşünü zarafatları ilə yumşaldaraq, bir anda səmimi ortam yaradan canlı əfsanə idi Heydər Əliyev. Mən ona heyran idim.

Növbə mənə çatdı. Qalxıb şeirimi oxudum. Kürsüdən aralanıb çiçəkləri Heydər Əliyevə təqdim etdim, 70 yaşı münasibətilə təbrik etdim və şeirimi yazdığım vərəqi ona uzatdım. Alnımdan öpdü, qucaqladı. Gözlərimin bərabərinə əyildi. O baxışlarda olan qətiyyəti hələ də unuda bilmirəm: “Mən sənə söz verirəm, Naxçıvan heç bir zaman Şuşanın gününə düşməyəcək! Biz Şuşanı azad edəcəyik!”

Şeirimi diqqətlə dinləmişdi:

*Xalq sənə inanır, inamı doğrult,*
*Yurdumun düşməni qoy olsun süqut.*
*Gücünü qələbə etdirsin sübut,*
*Xalqımın qeyrətli övladı Heydər!*

*Çıxart sən xalqını azad, ağ günə.*
*Düşməsin Naxçıvan Şuşa gününə.*
*Dağlar çəkilməsin xalqın köksünə,*
*Xalqımın qeyrətli övladı Heydər!*

“Düşməsin Naxçıvan Şuşa gününə” misrası Şuşanın işğalı ilə barışmayan yeniyetmə qızın fəryadı idi. O, bu fəryadın ağrısını bütün hüceyrələrinə qədər hiss etmişdi. Həzm edə bilmirdim torpaqlarımızın işğalını. İnandığım bir həqiqət var idi: hamı onun ərtafında sıx birləşməli, çəkici bir yerə vurmalı idi. Heydər Əliyev mənim üçün xalqın önündə gedən, onu düz yola yönəldən lider idi. Bu dünyada ağıllı, dərrakəli insan çoxdur. Amma hər ağıllı insan lider deyil. Heydər Əliyev lider idi. Mən bunu o vaxt gözəl dərk edirdim.

Mənim gözümdə Heydər Əliyev zəkanın və gücün birləşməsi idi. Bu üzdən onu hər zaman sevdim. O görüşdə onun yanında özümü o qədər güvəndə hiss etdim ki, içimdəki qorxu, vahimə bir anda çəkildi. Hələ çox gənc, ürkək, müharibənin dəhşətlərindən gözü qorxsa da, içində qan-qan deyən, ölümə getməyə belə hazır olan cəsarətli bir azərbaycanlı qızının səksəkəsinin üstündən bir xətt çəkdi o görüşdə Heydər Əliyev. O rahatlıq hissini verdiyi üçün, bizi – millətimizi, Vətənimizi qoruyacağına inandığım üçün mən onu saf məhəbbətlə sevdim.

...İnamlı alqış səsi zalı bürüdü. ..Sonrası xoşbəxtlik... Məktəbdə məşhurlaşmışdım.

İkinci dəfə onunla görüşmək mənə 1999-cu ildə nəsib oldu. Naxçıvan Dövlət Universitetində, II kursda oxuyurdum. Oktyabr ayı idi. Universitetin rektoru və müəllimim İsa Həbibbəyli Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin Naxçıvan Muxtar Respublikasının 75 illik yubiley tədbirlərində iştirak etmək üçün Naxçıvana gələcəyini və bu tədbirlər çərçivəsində universitetin yeni tədris korpusunun təntənəli açılışında iştirak edəcəyini söylədi. İsa müəllim Heydər Əliyevi salamlamaq üçün bir neçə tələbə ilə birgə mənim də şeir söyləməyimi istəyirdi. Keçirdiyim hissləri təsəvvür etmək o qədər də çətin deyil, yəqin ki. Xatirələr yenidən canlandı. Mən elə həmin an Vaqif Məmmədovun 1997-ci ildə qələmə aldığı “Ucalardan uca insan” şeirini söyləyəcəyimə qərar verdim:

*Sən ucasan, zəka səndə, güc səndə,*
*Şimşək səndə, alov səndə, qar səndə,*
*Xətainin cəsarəti var səndə.*
*Sən qeybdən göndərilən səsmisən?*
*Sən tökülən qan izini kəsmisən.*

*İllər boyu əsarətdə yatan el,*
*Sevincini, şadlığını atan el,*
*Dar ayaqda ətəyindən tutan el*
*Tanrısını tanıyırdı, duyurdu*
*Sən qoymadın parçalana bu yurdu.*

Əyilib üzümdən öpəndə: “Cənab Prezident, biz Sizinlə 1993-cü ildə, Sizin 70 illik yubileyinizdə görüşmüşdük. Mən Sizə şeirimi hədiyyə etmişdim”, – dedim. Gülümsəyərək: “Tanıdım səni. Sən həmin qızsan”,- dedi. Sonra orda iştirak edənlərdən sən onun qulağına nə dedin, o nə dedi sualları ilə maraq edənlər də az olmamışdı.

Elə hadisələr var ki, onların təəssüratı insanı ömrü boyu müşayiət edir. Mən xatirələrimi şişirtmədən, bəzək vermədən, sadə və yığcam danışmaq istədim. Məqsədim gözəl bir yazı hazırlamaq deyil də, yaddaşımın bir küncündə illərdir yaşayan, hər dəfə danışdıqca mənə gözəl hissləri təkrar yaşadan xatirələrimi yazıya köçürmək idi. Ulu öndərin 100 illiyinə mənim də bir töhfəm olmasını istədim. Xatirələri hər kəs sevər, bilirəm. Hər dəfə danışdıqca gözlərim güldüyü kimi, bu yazı qələmə alındıqda da gözlərim sevinc yaşları ilə nəmlənirdi. Atam, babam, ulu öndərim, ruhun şad olsun! Ruhuna böyük ehtiramla:

***Səbinə ƏLİNCƏLİ,***
***Bəhruz Kəngərli muzeyinin direktoru***

# FHN “Heydər Əliyev İli”nə həsr olunmuş əməliyyat-taktiki təlim keçirib



**Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyi çərçivəsində Fövqəladə Hallar Nazirliyi tərəfindən nazirliyin yanğın-xilasetmə qurumlarının iştirakı ilə “Bir hadisənin qarşısını almaq, o hadisə baş verəndən sonra onun nəticələrini aradan qaldırmaqdan daha asandır” şüarı altında əməliyyat-taktiki təlim keçirilib.**

Təlimi Azərbaycan Respublikasının fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov, Beynəlxalq Mülki Müdafiə Təşkilatının baş katibi Mariatu Yap, Bosniya və Herseqovinanın təhlükəsizlik naziri Nenad Neşiç, Qətər Dövlətinin ölkəmizdəki səfiri Feysal bin Abdullah Həməd Abdullah Al Hinzab, həmçinin FHN Akademiyasında kurs keçən bir qrup qətərli zabit izləyiblər.

Təlimin keçirilməsində əsas məqsəd xalqımızın ulu öndəri Heydər Əliyevin hər zaman xüsusi diqqətdə saxladığı vətəndaşların həyat və fəaliyyətinin təhlükəsizliyinin təmin edilməsi məsələləri ilə əlaqədar Fövqəladə Hallar Nazirliyinin qüvvələrinin daim yüksək hazırlıq vəziyyətində saxlanılması, fövqəladə hallarla mübarizə üzrə qurumlararası qarşılıqlı fəaliyyət və idarəetmə imkanlarının daha da genişləndirilməsindən ibarət olub.

***Qəzənfər QASIMOV,***
***“Xalq qəzeti”***

# "Azərbaycan xalqının əbədiyyət günəşi"



**Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının səhnəsində "Azərbaycan xalqının əbədiyyət günəşi" adlı bədii-plastik tamaşa təqdim olunub.**

Tamaşanın nümayişi Azərbaycan xalqının ümummilli lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə ithaf edilib.

Çıxışlarda ulu öndərin xatirəsinin nəsillərin yaddaşında hər zaman yaşadığı diqqətə çatdırılıb, onun təməlini qoyduğu ölkəmizin inkişaf strategiyasının bu gün uğurla davam etdirildiyi, ümummilli liderin zəngin irsinin şagirdlər arasında təbliğinin mühüm əhəmiyyət daşıdığı vurğulanıb. Qeyd edilib ki, ümummilli liderin uca zirvəyə qaldırdığı Azərbaycan və azərbaycançılıq məfkurəsi bu gün Prezident İlham Əliyevin müdrik rəhbərliyi altında uğurla inkişaf etdirilir.

***“Xalq qəzeti”***

# Ulu öndər Kazanda anıldı



**Dünən Rusiya Federasiyası Tatarıstan Respublikası Gənclərlə İş üzrə nazirlik nəzdində fəaliyyət göstərən Gənc Diplomatiya Akademiyası, Rusiya Federasiyası Xarici İşlər Nazirliyi nəzdində fəaliyyət göstərən Gənc Diplomatlar Şurasının və İslam Əməkdaşlıq Gənclər Forumu Avrasiya Regional Mərkəzi (İƏGF Avrasiya Regional Mərkəzi), birgə təşkilatçılığı ilə Tatarıstanın Kazan şəhərində 23 ölkə nümayəndəsinin iştirakı ilə İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Gənc Diplomatların VII Forumu keçirilib.**

Tədbirdə ümummilli lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş “Heydər Əliyev 100: şəxsiyyətin beynəlxalq münasibətlərdə rolu” mövzusunda panel müzakirələr keçirilib. İƏGF Avrasiya Regional Mərkəzinin İdarə Heyətinin sədri Elçin Əsgərov 1993-cü ildə Azərbaycanın kəskin siyasi böhrandan çıxarılmasında, eləcə də müasir Azərbaycan dövlətçiliyinin formalaşmasında Heydər Əliyevin rolundan bəhs edib. Voronej vilayəti qubernatorunun müşaviri, siyasi ekspert Yevqeni Mixaylov Heydər Əliyevin Rusiya–Azərbaycan münasibətlərinin inkişaf etdirilməsində qazandığı uğurlardan danışıb. Rusiya Xarici İşlər Nazirliyi nəzdində fəaliyyət göstərən Gənc Diplomatlar Şurasının sədri Konstantin Kolpakov ortaq dəyərlərin qorunmasında, xüsusilə, ikinci Dünya müharibəsi nəticələrinin Azərbaycanda tanınmasında Heydər Əliyevin rolundan bəhs edərək, Azərbaycanın post-Sovet məkanında sürətlə inkişaf etməsinin məhz onun fəaliyyətinin nəticəsi olduğunu vurğulayıb. Bütün çıxışlarda onun müstəqil Azərbaycanın xarici siyasətində balanslı kursun banisi olması xüsusi qeyd edilib.

***“Xalq qəzeti”***

# “Əliyev gəldi, gördü, qələbə qazandı!”

**Tacikistanın aparıcı xəbər agentliklərindən biri olan “Avesta.tj” Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Eldar Əzizovun müasir Azərbaycan dövlətinin memarı və qurucusu, ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş konseptual məqaləsini dərc edib.**




“Əliyev gəldi, gördü, qələbə qazandı!” sərlövhəli məqalədə “Əliyev fenomeni”nin ideya-siyasi təşəkkülünün mənbələri Azərbaycan tarixində sosial-siyasi hadisə kimi təhlil olunur, yeni Azərbaycan dövlətçiliyinin mövcudluğu uğrunda mübarizəni nəinki qabaqcadan müəyyən edən, həm də yeni geosiyasi mərhələdə respublikanın tarixi qələbələrini təmin edən ulu öndərin parlaq və dolğun həyat yolundan söhbət açılır.

Müəllif yazır ki, iki dövrün gərgin qovuşuğunda bu gözəl insan gələcəyə, siyasi müstəqilliyə, etibarlı müdafiə qabiliyyətinə və iqtisadi tərəqqiyə strateji körpü qurmaqdan ötrü tarixin həmin dönüş məqamında onu dağılmaqdan qoruyaraq və dövlət idarəçiliyinin yükünü öz üzərinə götürərək, suveren Azərbaycan Respublikasının təməlini qoya bildi.

***“Xalq qəzeti”***

# "Caspian Agro" və "Interfood Azerbaijan" sərgiləri başa çatıb



**Dünən Bakı Ekspo Mərkəzində regionun ən böyük sərgiləri - 16-cı Azərbaycan Beynəlxalq Kənd Təsərrüfatı "Caspian Agro" sərgisi və 28-ci Azərbaycan Beynəlxalq Qida Sənayesi "Interfood Azerbaijan" sərgisi öz işini başa çatdırıb.**

Sərgilərdə 31 ölkədən 479 şirkət iştirak edib, 9 ölkə isə milli stendlərlə təmsil olunub. "Caspian Agro" və "InterFood Azerbaijan" sərgilərində ABŞ, Almaniya, Belarus, Gürcüstan, İtaliya, Niderland, Şri-Lanka, Rusiya, eləcə də ilk dəfə sərgiyə gələn Tunis və Çexiyanın regional qrupları iştirak edib.

# Britaniya hökumətinin əsir hərbçilərimizlə bağlı cavabı

**Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Xarici İşlər, Birlik və İnkişaf Ofisi (FCDO) bu ölkədə fəaliyyət göstərən Azərbaycan icmasının Ermənistana əsir düşmüş azərbaycanlı əsgərlər Aqşin Babirov və Hüseyn Axundovla bağlı məktubunu cavablandırıb.**

Britaniya Azərbaycanlıları Cəmiyyətinin sədri Fəridə Pənahovaya ünvanlanan məktubda Ermənistan hakimiyyəti tərəfindən hər iki Azərbaycan əsgərinə qarşı qeyri-insani rəftara yol verilməsi ilə bağlı məlumat verildiyinə görə minnətdarlıq ifadə edilib.

"Dövlətlər himayəsində olan şəxslərlə humanist rəftar sahəsində minimum təminatları təmin etmək üçün tədbirlər görməlidir. Buna məhbusların ilkin tələbatının və əsas ehtiyacları ilə bağlı xidmətlərin təmin edilməsi daxildir. Böyük Britaniya hökuməti mütəmadi olaraq müxtəlif tərəfdaşlarla, o cümlədən, Ermənistanla insan hüquqları məsələlərini qaldırır", - deyə məktubda vurğulanıb.

**"Xalq qəzeti"**



Foreign, Commonwealth & Development Office

FCDO Correspondence Team
King Charles Street
London
SW1A 2AH

Email:
fcdo.correspondence@fcdo.gov.uk

www.gov.uk/fcdo

Our ref: TO2023/07590

3 May 2023

Farida Panakova
British Azerbaijani Community
26 Barrett Crescent
Wokingham
Berkshire
RG40 1UP

farida.panakova@outlook.com

Dear Farida Panakova,

Thank you for your letter of 17 April about the allegations of mistreatment of Azerbaijani soldiers, Babirov Agshin Gabil and Akhundov Huseyn Ahliman, by the Armenian authorities. I am replying as the Minister responsible for our relations with Azerbaijan and the wider South Caucasus region.

The Foreign, Commonwealth and Development Office (FCDO) is committed to the promotion of universal human rights. We call on States to ensure those in detention are treated in line with international human rights law. This includes being treated with humanity and with respect for the inherent dignity of the human person, as required by Article 10 of the International Covenant on Civil and Political Rights.

States should take steps to ensure minimum guarantees of humane treatment for persons in their custodial care; this includes ensuring that detainees have access to necessities and services that satisfy their basic needs.

The UK Government regularly raises human rights concerns with a variety of partners, including Armenia.

Yours sincerely,

FCDO Correspondence Team
Foreign, Commonwealth and Development Office

# "Daşnaksütyun" antixalq partiyası elan olundu

**Yüz otuz üç ildir ki, siyasi partiya adı altında terror fəaliyyəti həyata keçirən "Daşnaksütyun"un fəaliyyəti yaxın zamanda dayandırıla bilər. Bu barədə Ermənistan Milli Assambleyasının hakim "Vətəndaş sazişi"ndən olan deputatı Akop Aslanyan məlumat verib. Akop Aslanyan qeyd edib ki, "Daşnaksütyun" partiyasının fəaliyyətini dayandırılması zərurətdən irəli gəlir.**

Onun antixalq partiyasına çevrildiyini bildirən erməni deputat, yaxın bir neçə il ərzində adıçəkilən təşkilatın ölü partiyaya çevriləcəyini və tarix səhnəsindən silinəcəyini qeyd edib.

• **Arayış:** *1890-cı ildə yaranan "Daşnaksütyun" partiyasının ilk proqramı 1894-cü ildə qəbul edilib. Elə ilk proqramında Türkiyəyə qarşı açıq ərazi iddiaları yer almış, türk torpaqlarının işğal edilməsi partiyanın əsas məramı kimi qeyd olunmuşdur. Azərbaycanın Naxçıvan və Qarabağ bölgələrinin işğalı da "Daşnaksütyun"un başlıca hədəflərinə daxil idi. Sonrakı dönəmlərdə Türkiyə və Azərbaycana qarşı yüzlərlə terror aktı həyata keçirən "Daşnaksütyun" bu gün də dünyanın əsas "terror ixracatçılarından" biri olaraq qalmaqdadır.*

## Sülh yolunda böyük əngəl

Tarixi faktların təhlili göstərir ki, "Daşnaksütyun" bütün dövrlərdə sülh yolunda böyük əngəl olub. "Daşnaksütyun" və onun liderlərinin bu gün də Azərbaycanla Ermənistan arasında sülh müqaviləsinin imzalanmasına mane olduğu, rəsmi İrəvana təzyiqlər göstərdiyi məlum həqiqətlər sırasındadır.

Paşinyan hakimiyyətini xain, təslimçi hesab edən "Daşnaksütyun" liderləri hesab edirlər ki, rəsmi İrəvanın yürütdüyü siyasət Ermənistanın maraqlarına uyğun deyil və daha çox Azərbaycanın mənafeyinə cavab verir. Nümunə üçün qeyd edək ki, "Daşnaksütyun" partiyası cari ilin aprel ayında verdiyi bəyanatda İrəvanın Bakı ilə sülh müqaviləsi bağlamağa hazırlaşdığını bildirib, bu müqavilənin imzalanmasına mane olmağın zəruriliyini qeyd edib: "Daşnaksütyun partiyasının ali orqanı bir daha təsdiq edir ki, Ermənistan hakimiyyəti çoxdan ölkəmizin təhlükəsizliyi ilə bağlı üzərinə götürdüyü öhdəliklərdən imtina edib. O bizi yeni müharibəyə və sülh gündəmi adı ilə yeni güzəştlərə aparır. Çətinləşən şəraitdə Ermənistanın milli maraqlarını rəhbər tutan bütün sağlam güclərı birləşməyə çağırırıq ki, düşmənin xidmətçiləri olan hökumətin öldürücü milli siyasətinin davam etməsinə imkan verməyək".

Daim terror və təxribat siaysəti yürüdən "Daşnaksütyun", hər zaman olduğu kimi, bu gün də sülh yolunda əsas maneələrdəndir. Görünən odur ki, "Daşnaksütyun"un bu qorxunc missiyası Ermənistan hakimiyyəti, eləcə də sadə ermənilər tərəfindən də dərk edilməkdədir. Məhz bunun nəticəsidir ki, tarixən Türk dünyasının minlərlə nümayəndəsinin qətlini təşkil edən "Daşnaksütyun"un fəaliyyətinin dayandırılması erməni millət vəkilləri tərəfindən dilə gətirilməkdədir.

Xatırladaq ki, "Daşnaksütyun" partiyasının fəaliyyəti 1994-cü ildə Ermənistanın o zamankı prezident Levon Ter-Petrosyanın fərmanı əsasında dayandırılmışdır. Yalnız 4 ildən sonra – 1998-ci ildə partiyanın fəaliyyəti sabiq prezident Robert Koçaryan tərəfindən bərpa olunmuş, partiya siyasi müstəvidə fəaliyyət azadlığı əldə etmişdir.



## Partiyanın öz xalqına qarşı da ağır cinayətləri...

"Daşnaksütyun" tarixən Türkiyə və Azərbaycan xalqları ilə yanaşı, sadə ermənilərə qarşı da ağır cinayətlər törədib, yüzlərlə ermənyə yönəlik sui-qəsd təşkil edib. Buna səbəb həmin ermənilərin terror təşkilatının tələblərinə əməl etməməsi, onların vəhşiliklərinə boyun əyməməsi olub.

"Daşnaksütyun" hələ 1892-ci ildə Tiflisdəki ilk qurultayında Türk dünyası ilə yanaşı, sadə ermənilərə qarşı da faktiki müharibə elan etmişdir. Qurultayda şüar xarakterli bir neçə qərar qəbul edilmişdi ki, bunlardan da biri "Sözündən dönənləri, erməni xainlərini öldür, intiqam al" idi. Bu şüar türk xalqına qarşı mübarizədə yer almaq istəməyən, terror təşkilatına pul ödəməkdən imtina edən, onun tapşırıqlarını icra etməkdən yayınan ermənləri qətlə yetirməyi nəzərdə tuturdu.

Türk tarixçisi Esat Urasın "Tarixdə ermənilər" əsərində qeyd edir ki, 1890-cı il aprelin 20-də Ərzurumda "Daşnaksütyun"un zülmündən cana doyan ermənilər üsyan etmiş, terror təşkilatına açıq itaətsizlik sərgiləmişdi. Vətəndaşların müdafiə dərnəyinin rəhbərlik etdiyi üsyanı yatırmaq üçün hərəkətə keçən "Daşnaksütyun" üsyançılara atəş açmış, nəticədə hər iki tərəfdən 100-dən çox şəxs həlak olmuş, 300-ə yaxın erməni isə yaralanmışdır (Esat Uras. Tarihte Ermeniler, s.459).

"Daşnaksütyun" partiyası 1988-ci ilin Sumqayıt hadisələrində də, öz məkrli niyyətini həyata keçirmək üçün dinc erməniləri qətlə yetirmiş, törədilən cinayətlərə görə Azərbaycanı ittiham etmişdir. Həmin vaxt Sumqayıtdakı ermənilərin bir çoxunu "Daşnaksütyun"un hücumlarından məhz azərbaycanlılar qorumuş, sadə erməniləri labüd ölümdən xilas etmişlər.

...Sumqayıtda o zaman bir çox millətin nümayəndələri, o cümlədən, 14 min erməni yaşayırdı. Bu şəhərin tarixində heç vaxt millətlərarası ayrı-seçkilik olmamışdı. Bəs, necə oldu ki, bu hadisə baş verdi və bu, kimə lazım idi? Bu suallara cavab birmənalıdır. Sumqayıt hadisələri Qarabağı Azərbaycandan ayırmaq istəyən erməni millətçilərinə və onların havadarlarına lazım idi. Faciəli günlərin şahidləri olmuş ziyalılar da bu fikirdədirlər.

Bütün bu faktlar onu göstərir ki, "Daşnaksütyun" türk xalqı ilə yanaşı, həm də öz erməni toplumunun nümayəndələrinə qarşı da ağır cinayətlər törədib. Ona görə də bu partiyanın bağlanması hər şeydən öncə ermənilərin özünün mənafeyinə uyğundur.

**Seymur ƏLİYEV**

# Naxçıvan xəbərləri



## Culfa rayonunda müasir istirahət mərkəzi

**Bugünlərdə Culfa rayonunun Ərəfsə kəndində "Aquamarine Fish House" ailəvi istirahət mərkəzi istifadəyə verilib. Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli Culfa rayonunda yerləşən yeni xidmət sahəsinin fəaliyyətə başlaması münasibətilə kollektivi təbrik edib, yaradılan şəraitlə tanış olublar.**

Bildirilib ki, Naxçıvan Muxtar Respublikasında yeni müəssisələrin, o cümlədən, turizm-istirahət məkanlarının açılışı, yeni obyektlərin təməlinin qoyulması diqqət mərkəzində saxlanılır. Bu məqsədlə 4 min kvadratmetr ərazidə özünəməxsus üslubda inşa olunan istirahət mərkəzinin yaradılmasına 500 min manatdan çox vəsait sərf olunub. 2 min kvadratmetr sahədə tikinti işləri aparılıb, 100 min manat dəyərində yerli istehsal avadanlıqları ilə yanaşı, Türkiyə və İran mənşəli avadanlıqlar quraşdırılıb. Tikinti işlərinə 401 min manat vəsait sərf olunub.

Burada sahəsi 100 kvadratmetr olan kafe, 8 ədəd kabin, qonaqların istirahəti üçün 9 yerlik söhbətgah (besetka), uşaqlar üçün əyləncə sahəsi, mətbəxt, iş otağı və digər köməkçi sahələr yaradılıb. Canlı musiqi, milli mətbəximizin ləziz yeməklərinin təqdim edildiyi mərkəzdə eyni vaxtda 300 nəfərə yüksək səviyyəli xidmət göstərmək mümkündür.

Qeyd edilib ki, Mərkəzdə 21 nəfərlik personalın çalışması həm regionlarda yeni iş yerilərinin açılması, həm də buradakı əhalinin rifahının yüksəldilməsi baxımından böyük əhəmiyyət daşıyır. Mərkəzdə işıqlandırma sistemi, Wi-Fi, daxili rabitə və bir ədəd transformator quraşdırılıb, ərazi abadlaşdırılıb. Eyni zamanda, müəssisənin su ilə təmin olunması məqsədilə 400 metr uzunluğunda su xətti çəkilib, suyun keyfiyyətinin yaxşılaşdırılması üçün filtr sistemi quraşdırılıb. Müəssisənin ərazisində sahəsi 870 kvadratmetr olan hovuza 1000 farel balığı buraxılıb.

Təmiz hava və füsunkar mənzərəyə malik "Aquamarine Fish House" ailəvi istirahət mərkəzi yerli və xarici turistlərin sevimli əyləncə və istirahət məkanına çevriləcək. Bu obyektin istifadəyə verilməsi Naxçıvanın turizm potensialını artırmaq və şəhərimizə gələn qonaqların istirahətini mənalı təşkil etmək və məşğulluqda turizm sektorunun payının artırılmasında mühüm əhəmiyyət daşıyır.

## Böyük Atatürkün istiqlal məşəli



**"Naxçıvan" Universitetində 19 May Atatürkü anma, Gənclik və İdman Günü qeyd olunub.**

Universitetin rektoru, dosent Anar Kazımov 19 may gününü böyük tarixi bayram adlandırıb, Atatürkün Türkiyə həyatında oynadığı roldan, əbədiyaşar ideyalarından bəhs edib. Türkiyənin Naxçıvandakı baş konsulu Asip Kaya isə bildirib ki, Mustafa Kamal Atatürkün 104 il öncə mayın 19-da Samsunda yandırdığı istiqlal məşəli böyük zəfərin və cümhuriyyətin elan edilməsinin yollarını nurlandırıb.

AMEA Naxçıvan Bölməsinin sədri İsmayıl Hacıyev, Naxçıvan Müəllimlər İnstitutunun rektoru Azad Novruzov, Naxçıvan Dövlət Universitetinin prorektoru Arzu Abdullayev dahi öndərlər Mustafa Kamal Atatürkün və Heydər Əliyev ideyalarının əhəmiyyətindən, xalqlarımızın mehriban qardaşlıq münasibətlərindən danışıblar.

Sonra iki qardaş xalqın dostluğuna həsr olunmuş bədii kompozisiya təqdim edilib.

## İsveçrə şirkətinin aqrar layihəsi

**Muxtar respublikada daxili bazarın yerli məhsullarla təmin olunması, idxaldan asılılığın azaldılması, həmçinin ixrac potensialının artırılması qarşıda duran əsas məsələlərdəndir. Naxçıvanın təbii iqlim şəraiti müxtəlif kənd təsərrüfatı məhsullarının yetişdirilməsi üçün əlverişli olduğundan bu sahə xarici investorların da diqqətini çəkir.**



Hazırda İsveçrənin "iCsquared GmbH" şirkəti tərəfindən Naxçıvan Muxtar Respublikasının Şərur və Kəngərli rayonlarında yerfıstığı əkini aparılır. Kənd Təsərrüfatı Nazirliyindən aldığımız məlumata görə, şirkət əkin apardığı ərazilərdə sudan səmərəli və qənaətlə istifadənin təşkili üçün müasir suvarma sistemlərinin tətbiqi istiqamətində işlərə də başlayıb. Yerfıstığı istiyə davamlı bitki olsa da, bitkinin mövsümi su ehtiyacı 500-700 mm arasındadır. Buna görə də, müasir suvarma sistemlərinin yaradılması həm suya qənaət baxımından, həm də əkilən sahələrin aqrotexniki qaydalara uygun olaraq suvarılmasına imkan verir.

Məlumatda qeyd olunur ki, şirkət yerfıstığı ilə yanaşı, bu il kartof və qarğıdalı əkinləri də həyata keçirib. Növbəti mərhələdə isə qulançar əkininin aparılmasını planlaşdırılır. Belə layihələrin həyata keçirilməsi yerli sakinlərin də mövsümi işlərə cəlb olunmasına, özünüməşğulluğun təmin edilməsinə şərait yaradır.

**Səbuhi HƏSƏNOV**
**"Xalq qəzeti"**

# Azərbaycan maliyyə sistemi heç bir beynəlxalq qurumdan asılı deyil



**Əsas məqsədi qlobal inkişafa və iqtisadi sabitliyə kömək etməkdən ibarət olan Beynəlxalq Valyuta Fondu (BVF) iqtisadi çətinliklərlə üzləşən üzv dövlətlərə siyasət məsələləri üzrə məsləhət verir, onları maliyyələşdirir, həmçinin inkişaf etməkdə olan ölkələrlə işləyərək makroiqtisadi sabitliyə nail olmaq və yoxsulluğu azaltmaq üçün onlara kömək edir. 1945-ci ilin dekabr ayında yaradılan BVF iki il sonra fəaliyyətə başlayıb. Hazırda fond 186 ölkədən ibarət qlobal üzvlüyə malikdir.**

Azərbaycan 1992-ci il sentyabr ayının 18-də Beynəlxalq Valyuta Fonduna üzvlüyə qəbul edilib. Ötən müddətdə fond ölkəmizdə bir sıra sahələrdə, o cümlədən dövlət xərclərinin idarə olunması, vergi-gömrük siyasəti və onun idarə olunması, bank nəzarəti, mərkəzi bankçılıq, pul siyasəti və statistika sahələrində texniki yardım göstərib. Bu qurumla əməkdaşlığın əsasında uzunmüddətli neft strategiyasının nəticələrinin təhlili dayanır. Eyni zamanda, BVF ölkənin iqtisadi artım tempi barədə rəy bildirir, büdcəni proqnozlaşdırır, Azərbaycan Respublikası Dövlət Neft Fondunun aktivlərinin gələcək illərdə nə qədər artım tempinə malik olacağı barədə proqnoz verir.

Bu günlərdə isə Beynəlxalq Valyuta Fondu 2023-cü ilin iyun ayının sonunda Azərbaycandakı ofisini bağlamaq qərarına gəlib. Fondun Yaxın Şərq və Mərkəzi Asiya Departamentindən Azərbaycanın Maliyyə Nazirliyinə ünvanlanmış məktubda belə bir qərarın verilməsinin səbəbi kimi ölkəmizin güclü iqtisadiyyata və maliyyə ehtiyatlarına malik olması, yaxın gələcəkdə respublikamızla BVF arasında proqram xarakterli əməkdaşlığın gözlənilməməsidir. Məktubda, həmçinin qeyd olunur ki, ofisin bağlanması BVF-nin Azərbaycanla əlaqələrini zəifləməyəcək. Fond ölkəmizin inkişaf strategiyası ilə bağlı iqtisadi və maliyyə siyasətini müzakirə etmək üçün müntəzəm missiyalar təşkil edəcək, zərurət yarandıqda texniki yardım göstərəcək.

Əslində, bu gün özünün davamlı iqtisadi inkişafını təmin edən Azərbaycan maliyyə cəhətdən heç bir beynəlxalq qurumdan asılı deyil. Ötən müddətdə ölkəmiz iqtisadi potensialından, xüsusən də enerji resurslarından sərbəst şəkildə istifadə edərək maliyyə sabitliyinə nail olmağı bacarıb. Təkcə onu demək kifayətdir ki, 2020-ci il üzrə "Dayanıqlı İnkişaf Hədəfləri İndeksi"nə görə Azərbaycan 166 ölkə arasında 54-cü pillədə qərarlaşıb. Ümumi daxili məhsul 3 dəfə artıb, Azərbaycanda yoxsulluq 49 faizdən 5 faizə enib. Daha bir müsbət məqam ondan ibarətdir ki, Azərbaycan xarici dövlət borcuna görə dünyada 9-cu yerdədir. Bu da neft ixrac edən dövlətlər arasında ən yaxşı göstəricidir. Eyni zamanda, ölkəmizin valyuta ehtiyatları xarici dövlət borcundan 10 dəfə çoxdur. Təsadüfi deyil ki, ölkə Prezidenti İlham Əliyev mayın 10-da xalqa müraciətində deyib: "İqtisadi inkişafa gəldikdə, son 20 ildə dünya miqyasında Azərbaycan qədər sürətlə inkişaf edən ikinci ölkə yoxdur. İqtisadiyyatımız 3 dəfədən çox artmışdır. Bizim valyuta ehtiyatlarımız 65 milyard dollara çatıb, xarici borcumuz 6 milyard dollardan bir qədər çoxdur. Yəni, bizim valyuta ehtiyatlarımız xarici borcu təxminən 10 dəfə üstələyir. Xarici borc isə ümumi daxili məhsulumuzun cəmi 9-10 faizini təşkil edir. Bizə bəzən dərs verməyə can atan bəzi ölkələrdə bu, 100 faizdir, bəlkə də çox. Yəni, bu, nəyi göstərir? Onu göstərir ki, biz heç kimdən asılı deyilik."

Hazırda istənilən layihəni maliyyələşdirmək iqtidarında olan Azərbaycan artıq müxtəlif ölkələrin iqtisadiyyatına sərmayə yönəldir. Elə pandemiya dövründə Azərbaycanın fərdi qaydada 14 ölkəyə, eyni zamanda, Ümumdünya Səhiyyə Təşkilatının xətti ilə əlavə 15 ölkəyə humanitar yardım göstərməsi də bunun bariz nümunəsidir. Göründüyü kimi, Azərbaycanın artıq Beynəlxalq Valyuta Fondu kimi quruma ehtiyacı yoxdur. Bu faktın özü isə adıçəkilən qurumda ölkəmizlə bağlı münasibətdə bir əminlik yaradır.

***Mirbağır YAQUBZADƏ,***
***"Xalq qəzeti"***

## Ekspert rəyi

**Eyyub KƏRİMLİ,**
**iqtisadçı ekspert**



Son illər Azərbaycanda həyata keçirilən uğurlu siyasət, iqtisadiyyatın dinamik inkişafı, onun davamlı artımı, maliyyə ehtiyatlarımızın çoxalması və digər pozitiv meyillər dünyanın nüfuzlu analitik nəşrləri və beynəlxalq iqtisadi mərkəzləri tərəfindən təqdir olunmaqdadır. Qeyd olunan nüfuzlu təşkilatlar Azərbaycanı sistemli islahatlar həyata keçirən, əlverişli biznes mühitinin yaxşılaşdırılması sahəsində qətiyyətli addımlar atan və dünya iqtisadiyyatına inteqrasiya prosesində yüksək aktivlik nümayiş etdirən ölkə kimi səciyyələndirirlər.

Eyni zamanda, respublikamızın dünyanın enerji təminatında aparıcı ölkəyə çevrilməsi, zəngin enerji resurslarının nəqlində şaxələndirmə siyasətini gücləndirməklə enerji bazarına öz töhfəsini verməsi diqqətə çatdırılır. Ayrı-ayrı ölkələr milli iqtisadiyyatlarının inkişafı, infrastruktur quruculuğu, hətta sosial məsələlərin həlli üçün nəzərdə tutulan layihələrin icrasına maliyyə vəsaitləri cəlb etməkdən ötrü Dünya Bankına, Avropa Yenidənqurma və İnkişaf Bankına, Beynəlxalq Valyuta Fonduna və digər qurumlara çoxsaylı müraciətlər edirlər. Azərbaycanın nümunəsində isə biz artıq tamam fərqli mənzərənin şahidi oluruq. Təsadüfi deyil ki, Dünya Bankının "Doing Business" hesabatında Azərbaycan 190 ölkə arasında 28-ci yerə layiq görülüb. Bu, dünya miqyasında çox böyük nailiyyətdir. Biz bir çox inkişaf etmiş ölkələri bu parametrlər üzrə qabaqlamışıq. Hazırda dünyada yaşanan narahatlıqlar fonunda Azərbaycanın yüksək investisiya cəlbediciliyinə malik olması ölkəmizin müsbət reallıqları ilə bağlıdır.

Nüfuzlu Davos İqtisadi Forumunun "2017-2018 Qlobal Rəqabətlilik Hesabatı"nda da Azərbaycan iqtisadiyyatı müxtəlif indikatorlar üzrə yüksək qiymətə layiq görülüb. Bəhs olunan hesabatda milli iqtisadiyyatımız rəqabətqabiliyyətliliyinə görə daha iki pillə irəliləyərək 35-ci yerdə qərarlaşıb. Bu, o deməkdir ki, respublikamız dünya üzrə ən güclü iqtisadiyyata malik 40 ölkə sırasında yer alır və MDB-də lider mövqeyini qoruyub saxlayır.

Hazırda ölkəmizdə əlverişli investisiya mühiti mövcuddur. Bu gün Azərbaycan banklarının aktivləri 44,8 milyard manatdır, biznes kreditlərinin payına 11 milyard manatdan çox vəsait düşür. Həmçinin vurğulamaq istəyirəm ki, ölkədə dollarlaşma əhəmiyyətli dərəcədə azalıb, xüsusən xarici valyutada kreditlərin sayı kəskin aşağı düşüb.

## Ekspert rəyi

**Bəxtiyar İSMAYILOV,**
**Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin dosenti, iqtisad elmləri üzrə fəlsəfə doktoru**



Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən əsası qoyulmuş iqtisadi islahatlar ölkəmizdə uğurla davam etdirilərək milli iqtisadiyyatın dünya iqtisadi sisteminə inteqrasiyasında yüksək nəticələrə yol açıb. Azərbaycanın valyuta ehtiyatları artıq 65 milyard dollara çatıb. Ölkəmizin xarici borcu isə ÜDM-in 9-10 faizi səviyyəsində qiymətləndirilir.

Hazırda Azərbaycan Respublikası Dünya Bankı qrupuna daxil olan beş qurumla əməkdaşlıq edir. Respublikamızda aparılan iqtisadi siyasətin nəticəsi olaraq Azərbaycanın Mərkəzi Bankı öz fəaliyyətini dünya standartlarına uyğunlaşdıraraq beynəlxalq imicini daha da yüksəldib. 2023-cü il martın 31-nə bankın kredit portfeli 20 milyard 38 milyon 600 min manat təşkil edib ki, bunun da 54,8 faizini biznes kreditləri, 29,6 faizini istehlak kreditləri, 15,6 faizini isə ipoteka kreditləri təşkil edib.

Azərbaycanda yaradılan əlverişli investisiya mühiti, iqtisadiyyatın şaxələndirilməsi hesabına idxaldan asılılığın azaldılması, iqtisadiyyatın və maliyyə resurslarının güclənməsi, ölkəmizin gələcəkdə "yaşıl eneji" ixrac edən ölkəyə çevriləcəyi dünyanın güc mərkəzləri tərəfindən də yüksək qiymətləndirilir. Statistik mənbələrə əsasən, 2023-cü ilin sonunadək dünya iqtisadiyyatında qlobal iqtisadi artımın 2022-ci ildəki 3,4 faizdən 2,8 faizə enəcəyi proqnozlaşdırılır. Dünya iqtisadiyyatında qlobal iqtisadi artım 2022-ci ilin üçüncü rübündə dayanıqlı olsa da, ilin sonuna doğru azalmaqda davam edib. Bu ilin əvvəlində iqtisadiyyatda bəzi sabitləşmə əlamətləri hiss olunub. Bununla belə, mart ayının ortalarında ABŞ və Avropa ölkələrinin bank sektorunda yaranmış böhranlı vəziyyət, dünya maliyyə bazarının inkişafına mənfi təsir edərək maliyyə sabitliyi üçün riskləri əhəmiyyətli dərəcədə artırıb. Hesab edirəm ki, dünya iqtisadiyyatında müşahidə olunacaq iqtisadi böhranlar, ölkəmizdə aparılan uğurlu iqtisadi siyasət sayəsində milli iqtisadiyyatımızdan yan kecəcək.

Yeri gəlmişkən, ölkələrə kreditlər verən, dünya pul sisteminin fəaliyyətinin prinsiplərini inkişaf etdirən, beynəlxalq pul və maliyyə münasibətlərinin dövlətlərarası tənzimlənməsini həyata keçirən Beynəlxalq Valyuta Fondu 2023-cü il iyunun sonunda ölkəmizdəki ofisini bağlamağa dair qərar qəbul edərkən məhz bu amilləri əsas götürüb.

# Ölkəmiz neft məhsullarının ixracından 226,9 milyon dollar qazanıb

**2023-cü ilin yanvar-aprel aylarında Azərbaycan 226 milyon 950,6 min ABŞ dolları dəyərində 377 min 917,92 ton neft məhsulları ixrac edib.**

Bu barədə Dövlət Gömrük Komitəsinin cari ilin 4 ayının göstəricilərinə dair hesabatında məlumat verilib. Komitənin məlumatına görə, hesabat dövründə Azərbaycanın ixrac etdiyi neft məhsullarının dəyəri 2022-ci ilin müvafiq dövrünün göstəricisi ilə müqayisədə iki dəfədən çox, həcmi isə 95,1 faiz artıb.



Xatırladaq ki, ötən il Azərbaycan 527 milyon 355,16 min ABŞ dolları dəyərində 770 min 815,85 ton neft məhsulları ixrac edib. Bununla belə, cari ilin 4 ayında ölkənin ixrac etdiyi neft məhsullarının dəyəri 2021-ci ilin göstəricisi ilə müqayisədə 18,8 faiz, həcmi isə 42,6 faizə yaxın azalıb.

# "Şahdəniz" qazının nəqli 8 faizdən çox artıb

**Bu ilin yanvar-aprel aylarında Azərbaycanda magistral qaz kəmərləri ilə 14 milyard 711,7 milyon kubmetr qaz nəql edilib. Bu isə əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 5,7 faiz çoxdur.**



Dövlət Statistika Komitəsinin məlumatına görə, qaz nəqlinin 49,9 faizi Cənubi Qafqaz boru kəməri (Bakı-Tbilisi-Ərzurum) vasitəsilə həyata keçirilib. "Şahdəniz" qaz-kondensat yatağında hasil edilən qazın ixracını həyata keçirən bu kəmərlə hesabat dövründə 7 milyard 346,4 milyon kubmetr qaz nəql edilib. Bu da 2022-ci ilin eyni dövründəkindən 8,3 faiz artıqdır.

Yeri gəlmişkən, ötən il magistral qaz kəmərləri ilə 39 milyard 216,9 milyon kubmetr Azərbaycan qazı nəql edilib ki, bu da illik müqayisədə 11,7 faiz çoxdur. İl ərzində nəql olunmuş qazın 20 milyard 803,7 milyon kubmetri və ya 53 faizi Bakı-Tbilisi-Ərzurum boru kəmərinin payına düşüb. Bu isə 2021-ci ilin göstəricisi ilə müqayisədə 18,08 faiz artım deməkdir.

Xatırladaq ki, Azərbaycan 2020-ci il dekabrın 31-dən Cənub Qaz Dəhlizinin 878 kilometrlik hissəsini təşkil edən Trans-Adriatik boru kəməri (TAP) vasitəsilə Avropaya qazın kommersiya məqsədli nəqlinə başlayıb. TAP kəməri ilə "Şahdəniz-2" layihəsi çərçivəsində hasil olunan qazın ilkin olaraq ildə 10 milyard kubmetrinin Avropaya nəqli nəzərdə tutulur. Bu boru kəməri Yunanıstan, Albaniya və Adriatik dənizindən keçməklə İtaliyanın cənubuna qədər uzanır. Gələcəkdə kəmərin illik ötürücülük gücünün iki dəfə artırılaraq 20 milyard kubmetrə çatdırılması planlaşdırılır.

# Əhalinin gəlirləri 15 faiz çoxalıb

**Dövlət Statistika Komitəsinin məlumatına görə, bu ilin yanvar-aprel aylarında Azərbaycan əhalisinin nominal gəlirləri 23 milyard 549,5 milyon manat olub.**

Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 15 faiz çoxdur. Son bir ildə ölkədə adambaşına düşən nominal gəlir isə 14,3 faiz artaraq 2 327 manata çatıb.

***"Xalq qəzeti"***



# Ticarət dövriyyəsində 4,2 milyard dollarlıq müsbət saldo yaranıb

**Azərbaycanda baş verən dinamik sosial-iqtisadi inkişaf əksər dünya dövlətləri, həmçinin beynəlxalq nüfuzlu təşkilatlar tərəfindən rəğbətlə qarşılanır. Bunun nəticəsidir ki, son illər ölkəmizin adı müxtəlif reytinq sıralamalarında, bir qayda olaraq, öncül yerlərdə göstərilir. Bu da təsadüfi deyil. Çünki beynəlxalq maliyyə qurumları səmərəli əməkdaşlıq edən Azərbaycanda aparılan islahatlar, sosial siyasət, həyata keçirilən infrastruktur layihələri və digər zəruri tədbirlər düzgün, düşünülmüş strategiyaya əsaslanır, ölkənin davamlı inkişafına və həyat səviyyəsinin yaxşılaşdırılmasına yönəldilir.**

Azərbaycanın iqtisadi qüdrətinin və beynəlxalq nüfuzunun getdikcə artması xarici ticarət əlaqələrinin genişlənməsinə təkan verir. Dövlət Statistika Komitəsinin məlumatına görə, gömrük orqanlarında qeydiyyatı aparılmış, lakin gömrük rəsmiləşdirilməsi tam başa çatdırılmamış ixrac olunan xam neft və təbii qazın statistik qiymətləndirilmiş dəyəri nəzərə alınmaqla 2023-cü ilin yanvar-mart aylarında ölkəmizin xarici ticarət dövriyyəsi 12 milyard 269,3 milyon ABŞ dolları, o cümlədən ixracın dəyəri 8 milyard 239,4 milyon dollar, idxalın dəyəri 4 milyard 29,9 milyon dollar təşkil edib, nəticədə 4 milyard 209,5 milyon dollarlıq müsbət ticarət saldosu yaranıb.

Belə bir göstəricinin əldə olunmasını bir sıra amillər şərtləndirib. Xüsusilə respublikamızın tranzit potensialının reallaşdırılması istiqamətində icra olunan layihələr bu məsələdə mühüm rol oynayıb. Başqa sözlə, ölkəmizin nəqliyyat infrastrukturunun müasir dünya standartlarına uyğunlaşdırılması, tranzit potensialının daha da artırılması ilə bağlı gerçəkləşdirilən tədbirlər və qlobal miqyaslı təşəbbüslər sosial-iqtisadi inkişafı sürətləndirməklə Azərbaycanı mühüm nəqliyyat qovşağına və dəhlizlərin keçdiyi məkana çevirib. Avtomobil yolları və dəmir yolu xətlərinin beynəlxalq standartlar əsasında yenidən qurulması, paytaxtda və regionlarda beynəlxalq aeroportların, Bakı Beynəlxalq Dəniz Ticarət Limanının tikintisi, Şərq-Qərb və Şimal-Cənub nəqliyyat dəhlizlərinin inkişafı istiqamətində gerçəkləşdirilən layihələr Azərbaycanın nəqliyyat infrastrukturunun inkişafında əhəmiyyətli rol oynayıb, ölkəmizin tranzit potensialını daha da gücləndirib.



Yuxarıda qeyd edilən yüksək statistik göstəricilərin əldə olunmasında biznes əlaqələrinin təşviqi də mühüm rol oynayıb. Belə ki, son 20 ildə Azərbaycanın iqtisadi potensialının güclənməsi, reallaşdırılan diversifikasiya siyasəti, müasir texnologiyalara əsaslanan və rəqabətqabiliyyətli məhsul istehsal edən yüzlərlə müəssisənin fəaliyyətə başlaması da, təbii ki, respublikamızın xarici iqtisadi-ticari əlaqələrinin genişlənməsini şərtləndirib. Bu, Statistika Komitəsinin idxal-ixracla bağlı digər göstəricilərində də vurğulanıb. Məsələn, məlumatda 2022-ci ilin yanvar-mart ayları ilə müqayisədə bu ilin müvafiq dövründə xarici ticarət dövriyyəsinin faktiki qiymətlərlə 0,1 faiz, real ifadədə 5,1 faiz, o cümlədən idxalın 13,7 faiz, ixracın isə 2,4 faiz artması diqqətə çatdırılıb.

Xarici ticarət dövriyyəsinin 90 faizi İtaliya, Türkiyə, Rusiya, Çin, Almaniya, İsrail, İspaniya, Yunanıstan, Hindistan, Rumıniya, Çexiya, Fransa, Gürcüstan, Türkmənistan, Avstriya, İran, Qazaxıstan, Vyetnam, ABŞ, İndoneziya və İrlandiya ilə aparılan ticarət əməliyyatlarının payına düşüb. Bu dövrdə Rusiya, Çin və Türkiyə tərəfindən idxal olunan malların 62,1 faizi avtomobil, 15,3 faizi dəmir yolu, 9,9 faizi hava, 8,7 faizi dəniz nəqliyyatı ilə gətirilib, 4 faizi isə boru kəməri və elektrik ötürücü xətləri ilə nəql edilib.

İxracın strukturunda xam neft, təbii qaz və neft-qaz, kimya sənayesi məhsullarının, alüminium və ondan hazırlanan məmulatların, pambıq lifi və ipliyinin payı üstün olub. Cari ilin yanvar-mart aylarında qeyri-neft-qaz məhsullarının ixracı 2022-ci ilin yanvar–mart ayları ilə müqayisədə faktiki qiymətlərlə 23,2 faiz, real ifadədə isə 19,2 faiz artaraq 912,2 milyon dollara bərabər olub. Qeyri neft-qaz məhsulları üzrə ixracın dəyərində Türkiyəyə (37,3 faiz), Rusiyaya (22 faizgöndərilmiş malların payı üstünlük təşkil edib.

Son illərdə beynəlxalq və regional təşkilatlarla aparılan ardıcıl iş də Azərbaycanın xarici iqtisadi əlaqələrinin genişlənməsinə müsbət təsir göstərib. Nəticədə, ötən müddət ərzində Azərbaycanın BMT və onun qurumları, Avropa İttifaqı, İqtisadi Əməkdaşlıq Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, eləcə də Dünya Bankı, Beynəlxalq Valyuta Fondu, Avropa Yenidənqurma və İnkişaf Bankı və s. kimi nüfuzlu beynəlxalq institutlarla əlaqələri daha da möhkəmlənib.

Respublikamızın xarici iqtisadi əlaqələrinin mühüm tərkib hissəsi olan ticarət fəaliyyətini tənzimləyən qanunvericilik də təkmilləşdirilib, mütərəqqi beynəlxalq təcrübə nəzərə alınmaqla hazırlanan yeni Gömrük Məcəlləsi, "Gömrük tarifi haqqında", "Antidempinq, kompensasiya və mühafizə tədbirləri haqqında" Azərbaycan Respublikasının qanunları və digər normativ hüquqi aktlar qəbul edilib.

Göründüyü kimi, Azərbaycanın xarici ticarət əlaqələrinin inkişafı daim diqqətdə olan məsələlərdən biridir. Məhz bunun nəticəsidir ki, yerli məhsulların xaricə, o cümlədən, qeyri-ənənəvi bazarlara ixracının genişləndirilməsi məqsədilə zəruri tədbirlər görülür. Azərbaycan Prezidentinin bu istiqamətdə tapşırıqlarına uyğun olaraq, dövlət dəstəyi ilə potensial ixrac ölkələrində logistik mərkəzlərin yaradılması üzrə tədbirlər reallaşdırılır. Bununla yanaşı, qarşılıqlı investisiya fəaliyyətinin təşviq edilməsi istiqamətində işlər də getdikcə gücləndirilir. Bu, ilk növbədə, investorlar üçün mühüm əhəmiyyət kəsb edən investisiyaların qarşılıqlı qorunmasını, təşviqini, eləcə də ikiqat vergitutmanın aradan qaldırılmasını nəzərdə tutan hüquq-müqavilə bazasının yaradılması layihələrində özünü qabarıq büruzə verir.

***Vaqif BAYRAMOV,***
***"Xalq qəzeti"***

# Azərbaycan Respublikası Nazirlər Kabinetinin Qərarı

**№ 160** **Bakı şəhəri, 18 may 2023-cü il**

***Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 aprel tarixli 144 nömrəli Qərarı ilə təsdiq edilmiş "Məhkum edilmiş və ya barəsində qətimkan tədbiri seçilmiş şəxslərə elektron nəzarət vasitələrinin tətbiqi Qaydaları"nda dəyişiklik edilməsi haqqında***

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, elektron nəzarət vasitələri tətbiq edilən məhkum edilmiş və ya barəsində qətimkan tədbiri seçilmiş şəxslər üzərində nəzarətin daha effektiv həyata keçirilməsinin təmin olunması, habelə bu sahədə səmərəliliyin artırılması məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2018-ci il 10 aprel tarixli 144 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2018, № 4, maddə 795; 2021, № 3, maddə 285) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Məhkum edilmiş və ya barəsində qətimkan tədbiri seçilmiş şəxslərə elektron nəzarət vasitələrinin tətbiqi Qaydaları"nda aşağıdakı dəyişikliklər edilsin:

**1.** 6.7.3-cü yarımbəndə "təkrarlayır" sözündən sonra ", həmçinin elektron qolbağın açılması və ya ərazi məhdudiyyətinin pozulması halları mövcud olduqda, bununla bağlı dərhal məsul icra məmuruna (probasiya üzrə) və ya polis orqanının müvafiq vəzifəli şəxsinə məlumat verir" sözləri əlavə edilsin.

**2.** 6.7.4-cü yarımbəndə "olmadıqda," sözündən sonra "bu Qaydaların 6.7.3-cü yarımbəndində nəzərdə tutulmayan digər pozuntularla bağlı" sözləri əlavə edilsin və həmin yarımbənddə "onun" sözü "aşkar edilmiş bütün pozuntuların" sözləri ilə əvəz edilsin.

**3.** 8.2-ci bənd aşağıdakı redaksiyada verilsin:

"8.2. Aşağıdakı hallarda elektron nəzarət vasitəsi nəzarət subyektinin üzərindən icra məmurunun (probasiya üzrə) və ya polis orqanının müvafiq vəzifəli şəxsinin əsaslandırılmış qərarı ilə müvəqqəti çıxarılır:

8.2.1. tibb müəssisəsinin rəyinə əsasən nəzarət subyektinə tibbi yardım göstərilməsi zərurəti olduqda;

8.2.2. barəsində inzibati həbs növündə tənbeh tədbiri tətbiq edildikdə;

8.2.3. barəsində həbs növündə qətimkan tədbiri seçildikdə;

8.2.4. nəzarət subyekti alkoqolizm və ya narkomaniyadan müalicə məqsədilə ixtisaslaşdırılmış tibb müəssisəsinə və ya psixi pozuntusu ilə əlaqədar psixiatriya stasionarına yerləşdirildikdə.".

**4.** Aşağıdakı məzmunda 8.2-1-ci bənd əlavə edilsin:

"8.2-1. Bu Qaydaların 8.2.1-8.2.4-cü yarımbəndlərində qeyd olunan hallar aradan qalxdıqda və bu Qaydaların 8.1-ci bəndində nəzərdə tutulan hallar olmadıqda, elektron nəzarət vasitəsi şəxsə yenidən tətbiq olunur.".

***Əli ƏSƏDOV,***
***Azərbaycan Respublikasının Baş naziri***

# Şeyxülislam Allahşükür Paşazadə Tatarıstanda



**Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri, şeyxülislam Allahşükür Paşazadə Rusiya Federasiyasının Tatarıstan Respublikasının başçısı Rüstəm Minnixanovun dəvəti ilə Kazan şəhərində keçirilən "Rusiya – İslam aləmi strateji baxış qrupu"nun növbəti illik görüşündə iştirak edir.**

Tədbirdə Prezident İlham Əliyevin salamlarını və xoş arzularını qardaş Tatarıstan xalqına və Forum iştirakçılarına çatdıran QMİ sədri qeyd edib ki, Rusiya tarixən İslam dünyasına və müsəlman irsinə dərin hörməti ilə tanınır, İslam dininin mütərəqqiliyini və mənəvi əhəmiyyətini yüksək qiymətləndirir.

Şeyxülislam İslam dünyası ilə dinlərarası dialoqun və əməkdaşlığın inkişafına verdiyi layiqli töhfəyə görə, eləcə də Cənubi Qafqazda sülhün əldə edilməsinə və qarşılıqlı etimadın bərpasına yönəlmiş fəaliyyətinə görə Patriarx Kirilə öz minnətdarlığını bildirib.

"Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü ilə əlaqədar Azərbaycan Prezidentinin ünvanına, o cümlədən bu tədbirdə iştirak edən bir çox siyasi, dini və ictimai xadimlərdən təbrik mesajları gəlməkdə davam edir, onların çoxu bu parlaq şəxsiyyətlə ünsiyyətdə olublar", - deyən Allahşükür Paşazadə ulu öndər Heydər Əliyevin əziz xatirəsinə belə həssaslıqla yanaşdıqları üçün Azərbaycan xalqı adından tədbir iştirakçılarına təşəkkür edib.

* * *

Həmçinin şeyxülislam A.Paşazadə və Tatarıstanın rəhbəri Rüstəm Minnixanov ayrılıqda da görüşüb fikir mübadiləsi aparıblar. Şeyxülislam Tatarıstan rəhbərinə Azərbaycan Prezidenti İlham Əliyevin salamlarını çatdırıb, Azərbaycan xalqının qardaş Tatarıstana və onun rəhbərliyinə dərin rəğbət və ehtiram bəslədiyini ifadə edib.

Öz növbəsində Minnixanov Azərbaycanın dövlət başçısına öz ehtiramını və salamlarını çatdırmağı xahiş edib və bütün Azərbaycan xalqını ulu öndər Heydər Əliyevin 100 illiyi münasibətilə təbrik edib.

Forum öz işini davam etdirir.

# ÜST-nin psixososial dəstək layihəsi



**Avropa İttifaqının (Aİ) maliyyə dəstəyi ilə Ümumdünya Səhiyyə Təşkilatının (ÜST) Azərbaycandakı ölkə ofisi tərəfindən həyata keçirilən "Psixi sağlamlıq xidmətlərinin münaqişədən sonrakı dövrdə koordinasiyası və transformasiyası" layihəsinin nəticələri təqdim olunub. Bu barədə məlumat verən təşkilatın Azərbaycan ofisindən bildiriblər ki, təqdimatın əsas məqsədi layihə çərçivəsində görülən işləri və əldə olunan nailiyyətləri, ÜST-nin multidisiplinar psixososial dəstək təcrübəsini yerli tərəfdaşlarla bölüşməkdir.**

Tədbirdə Psixi Sağlamlıq Mərkəzinin direktoru Fuad İsmayılov Azərbaycanda psixi sağlamlıq sisteminin mövcud vəziyyəti, ÜST-nin psixi sağlamlıq və psixososial dəstək üzrə əlaqələndiricisi Elturan İsmayılov layihənin aralıq nəticələri, Azərbaycan Tibb Universitetinin professoru Ağahəsən Rəsulov multidisiplinar psixososial dəstək mövzularında məruzələr ediblər.

ÜST-nin Azərbaycandakı nümayəndəsi Hande Harmancı bildirib ki, "Psixi sağlamlıq xidmətlərinin münaqişədən sonrakı dövrdə koordinasiyası və transformasiyası" layihəsinin təməl hədəfləri əhali arasında mental vəziyyəti yaxşılaşdırmaq və ilkin səhiyyə xidməti müəssisələrində psixoloji dəstəyə əlçatanlığı artırmaqdır. Onun sözlərinə görə, Qarabağ müharibəsindən sonra bu məsələnin önəmi daha da artıb. Layihə çərçivəsində ilk olaraq Ağcabədi, Bərdə, Tərtər, Ağdam, Füzuli rayonları seçilib. Bu rayonlarda ilkin səhiyyə qurumlarında tibb işçilərinin psixoloji-sosial istiqamətdə təməl bilik və bacarıqlarının artırılması üçün təlimlər keçirilib.

H.Harmancı qeyd edib ki, layihə çərçivəsində 20 psixiatr və ilkin səhiyyə həkimindən ibarət milli təlimçi komandası yaradılıb. Milli təlimçilər üçün beynəlxalq ekspert tərəfindən superviziyalar təşkil olunub. Rayonlarda 100-dən çox ilkin səhiyyə həkiminin psixi sağlamlıqla bağlı bilik və bacarıqları artırılıb. Təlimlərdə iştirak etmiş ilkin səhiyyə həkimlərinə milli təlimçilər tərəfindən 10 superviziya keçirilib. Həmçinin Ağdam rayonlararası ruhi-əsəb dispanserində psixoloq və sosial işçi üçün ofis quraşdırılıb. TƏBİB-in həssas əhali qrupları ilə iş üzrə 50-yə yaxın koordinatoru üçün "Psixosoial dəstəyin təməl prinsipləri" mövzusunda təlim təşkil olunub.

Təqdimat toplantısında, həmçinin Milli Məclisin Səhiyyə komitəsinin sədri, akademik Əhliman Əmiraslanov, Əmək və sosial siyasət komitəsinin sədri Musa Quliyev, TƏBİB-in icraçı direktorunun müavini Anar İsrafilov və Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi İdarə Heyətinin sədri Anar Bayramov çıxış edib layihə barədə fikirlərini bölüşüblər.

Tədbir zamanı koordinasiya mexanizmlərini təkmilləşdirmək və həyata keçirmək üçün koordinasiya qrupunun ilk görüşü təşkil olunub. Həmçinin ÜST və dövlət qurumlarının nümayəndələri səmərəliliyi artırmaq üçün Psixi sağlamlıq və psixososial dəstəyin (PSPSD) yönləndirmə sistemlərinin təhlilindən əlavə növbəti addımları da müəyyən edib.

ÜST-nin mütəxəssisləri rayon mərkəzi xəstəxanalarında əhaliyə birbaşa psixososial dəstək göstəriblər. Bununla yanaşı, əhalinin maarifləndirilməsi, psixoloji sağlamlıqla bağlı stiqmanın aradan götürülməsi və xidmətlər haqqında məlumatlandırma ilə bağlı Bərdə və Ağcabədidə kampaniyalar həyata keçirilib.

Pilot layihənin bu ilin sonuna qədər həyata keçirilməsi planlaşdırılır.

***Zərifə BƏŞİRQIZI,***
***"Xalq qəzeti"***

**Replika**

# Abşeronda "təcili yardım" "təxirə salınan yardım"a keçib?

**Çəkinmədən, qətiyyətlə və birmənalı şəkildə deyirəm: Xırdalanda əhaliyə göstəriləcək təcili tibbi yardım xidməti sıfır səviyyəsindədir. Bu qurumun adı Təcili və Təxirəsalınmaz Tibbi Xidmət Stansiyası olsa da, bütün çağırışları "təxirə salırlar". Mən bunu təkcə öz başıma gələnlər əsasında demirəm, sakinlərdən dəfələrlə eşitdiyim "Çağırmayın, gəlməyəcəklər!" – xəbərdarlığına da istinad edirəm.**




Əvvəllər – biz burada 2020-ci ildən yaşayırıq – kimdənsə "gəlməyəcəklər" ifadəsini eşidəndə həmin adamı qınayırdım ki, dövlət qurumunun fəaliyyətinə kölgə salmaq istəyirlər. Bunu təkcə rəsmi dövlət qəzetində çalışdığıma görə demirdim, ümumiyyətlə, ölkədəki sosial-iqtisadi inkişafın səviyyəsinə arxayın olan vətəndaş kimi deyirdim. Sən demə, bu inkişaf tempinə kölgə salan "gəlməyəcəklər" – deyən sakinlər yox, çağırışa gəlməyən "təcili yardım" işçiləridir. İndi isə özüm "təcili yardım"a zəng etmək istəyənlərə deyirəm ki, çağırmayın, gəlməyəcəklər.

Qeyd etdiyim kimi, biz artıq 35 aydır ki, Xırdalanda yaşayırıq. Evimizdə həkim yardımına ehtiyac hiss edən ailə üzvümüz olduğuna görə bu müddətdə, bəlkə də, əlli dəfə zəng etmişəm, hələ bircə dəfə də olsun "təcili yardım" həkimlərinin üzünü görməmişəm. Gəlmədikləri bir yana, zəng edən sakinə normal münasibətləri də yoxdur. Həmişə taksi tapıb xəstəni müxtəlif xəstəxanalara aparmışıq. Hətta bir dəfə qonşular da toplaşıb "çağırış göndərməkdə" mənə kömək etdilər ki, bəlkə, nə isə alındı. Ancaq onda da alınmadı. Hər dəfə dəstəyi götürüb başqa bir nömrə deyirlər ki, oraya zəng edin. Zəng edirik. Oradan da bayaqkı nömrəyə zəng eləməyi məsləhət bilirlər. Sadəcə, sakinlərin əsəbləri ilə oynayırlar.

Mayın 15-də isə başqa bir nənəcibliyə imza atdılar. Yeddi-səkkiz dəfə zəng etdim, axır ki, dəstəyi götürən xanım (əslində, "xanım" sözü ona haramdır) dedi ki, bizim imkanımız yoxdur, "102"-yə zəng edin, adətən, onlar həkim göndərirlər. Həmin ünvana zəng etdim, dedilər ki, təcrübədə belə bir fakt olmayıb: "102-nin həkimi də yoxdur, təcili yardım maşını da. Ola bilsin ki, həkimlər sizinlə zarafat ediblər". Mat qaldım. Gecə saat 11-də həkim qadın 70 yaşlı qoca ilə niyə "zarafatlaşsın?"

Başqa bir məqamı da yada salmaq istəyirəm. Sakinlərdən biri dedi ki, həkimləri tənqid etməklə iş bitmir. Buradakı təcili yardım stansiyası Xırdalanın 35-40 min, Abşeronun isə yüz min nəfərə yaxın əhalisi olanda formalaşdırılıb. İndi isə Xırdalan şəhəri ilə Abşeron rayonunun əhalisi bir milyona yaxındır. Yəni müvafiq dövlət qurumları bunu nəzərə almalıdır.

Həmin ahıl sakinin dediklərindən belə çıxdı ki, biz xəstələrimizi müvafiq tibb müəssisələrinə çatdırmaq üçün hələ uzun müddət taksilər axtarmalı olacağıq. Eybi yoxdur, dözərik. Təki Səhiyyə Nazirliyindəki soydaşlarımızın işi rəvan getsin. Dövlət vəsaitini hara, necə xərcləyirlərsə, xərcləsinlər. Sakinlər "təcili yardım"sız da keçinə bilərlər. Bu ifadəni bilərəkdən belə yazdım. Çünki "keçinmək" sözünün bir mənası da vəfat etməkdir. Nazirlikdəkilərin nə vecinə...

*P.S. Təxminən 10-15 gün əvvəl metronun 28 May stansiyasının perronunda yanında dörd-beş yaşlı oğlan uşağı olan cavan qadının vəziyyəti pisləşmiş, dili boğazına getmişdi. Metro işçiləri, oradakı polislər və sərnişinlər xəstəyə kömək etmək və uşağın psixoloji travma almaması üçün elə səfərbər olmuşdular ki, xalqımızın böyüklüyü ilə bir daha fəxr etdim və ürəyim riqqətə gəldi. Ancaq çağırışdan yarım saat keçməsinə baxmayaraq "təcili yardım"ın gəlməməsinə ironiya ilə münasibət bildirən kişinin sözünə hamı kimi mən də gülmüşdüm: "Onlar yerin üstündəki xəstələrin yanına çatmırlar, yerin altına necə gəlsinlər?".*

***İttifaq MİRZƏBƏYLİ,***
***"Xalq qəzeti"***

# Mina terroru bəşəriyyətə qarşı terrordur





**"Minaların Əleyhinə Azərbaycan Kampaniyası" İctimai Birliyi Horadiz şəhərində "Minalarla çirklənmə və bunun azərbaycanlı məcburi köçkünlərin öz doğma şəhər və kəndlərinə qayıtmasına təsiri" mövzusunda görüş keçirib.**

Görüşdə ANAMA-nın, Ombudsman Aparatının, Birləşmiş Millətlər Təşkilatı İnkişaf Proqramının, Beynəlxalq Qırmızı Xaç Komitəsinin, əlaqədar yerli qurumların, mina qurbanlarının yaxınları iştirak ediblər.

Məqsəd məcburi köçkünlərin geri qayıtması və onların rifahı ilə bağlı prosesdə mina təhlükəsinin yaratdığı çağırışları və mina terrorunun ağır nəticələri barədə hesabatın hazırlanması və beynəlxalq təşkilatlara təqdim edilməsi olub.

Sonda mina terroru qurbanlarının ailələri adından həm Azərbaycan, həm də beynəlxalq ictimaiyyətə müraciət səsləndirilib. Qeyd olunub ki, beynəlxalq ictimaiyyət Azərbaycandakı mina problemlərinə ciddi yanaşmalı və bu problemin tez zamanda həll olunması üçün Azərbaycana dəstək verilməlidir.

Görüş "LINKS Europe" ilə birlikdə Birləşmiş Millətlər Təşkilatının İnkişaf Proqramının Azərbaycan nümayəndəliyinin və Böyük Britaniyanın Bakıdakı səfirliyinin dəstəyi ilə təşkil olunub.

***"Xalq qəzeti"***

# 10 yoluxma faktı qeydə alınıb

**Son sutkada Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına 10 yoluxma faktı qeydə alınıb, 16 nəfər müalicə olunaraq sağalıb.**

Nazirlər Kabineti yanında Operativ Qərargahdan verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 1 nəfər vəfat edib.

Son sutkada yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 828, bu günə qədər isə ümumilikdə 7 milyon 609 min 770 test icra olunub.



Elçin – 80

# Yubilyar ədibin növbəti sənət hesabatı

**Xalq yazıçısı və ictimai xadim Elçin Əfəndiyevin anadan olmasının 80 illiyi münasibətilə ölkəmizdə yubiley tədbirləri davam edir. Dünən Akademik Milli Dram Teatrında keçirilən təntənəli mərasimdə çağdaş ədəbiyyatımızın görkəmli nümayəndəsinin mənalı həyat yolu və zəngin yaradıcılığı xalqımızın sevgi-sayğısının və dövlətimizin yüksək qiymətinin hədəfi oldu.**





Mədəniyyət Nazirliyinin təşkil etdiyi yubiley toplantısında dövlət və hökumət rəsmiləri, tanınmış mədəniyyət xadimləri, ictimaiyyət nümayəndələri iştirak edirdilər.

Xalq artisti Nurəddin Mehdixanlı Xalq yazıçısı Elçinin müasir ədəbiyyatımızı zənginləşdirən və dünya miqyasında da yüksək səviyyəsində təmsil edən nəsr və dramaturgiya yaradıcılığından söz açaraq bildirdi: "Xalq yazıçısı Elçinin yaradıcılığı Azərbaycan ədəbiyyatının təkrarolunmaz səhifələrindəndir. O, ilk hekayəsini 1959-cu ildə yazıb. Onun ilk hekayələr kitabı 1966-cı ildə yazılıb, çoxsaylı povestlərdədən sonra yazdığı ilk romanı da "Mahmud və Məryəm" yazıçıya geniş şöhrət qazandırıb. Elçin müəllim dramaturgiya yaradıcılığı ilə Azərbyacan səhnəsində öz teartını da yaratmağa nail olub. Sevimli ədibimizin əsərləri təkcə Azərbaycanda deyil, keçmiş SSRİ respublikalarında, eləcə də digər xarici ölkələrdə çap olunub, pyesləri tamaşaya qoyulub".

Teatrşünas professor Məryəm Əlizadə Elçini çağdaş Azərbaycan dramaturgiyasının aparıcı siması kimi təqdim edib: "60-cı illər ədəbi nəslinin parlaq nümayəndəsi olan Elçinin dramaturgiyası da özünəməxsusluğu ilə seçilir. Elçin yaradıcı insan kimi həyatın çağırışlarını və auditoriyanın tələbatını həssaslıqlam duyan və çevik cavablandıran yazıçıdır. O, Azərbaycanın dünya səviyyəliədibidir. Onun pyesləri, əsərləri dünyanın bir çox ölkələrində səhnələşdirilir və sevilir".

Sənətşünaslıq professoru İlham Rəhimli Xalq yazıçısı Elçinin yüksək estetik dünyagörüşünün onun bədii yaradıcılığını sənətkarlıq baxımından yüksək səviyyəyə qaldırdığına diqqət yetirərək görkəmli dramaturqun milli teatrımızı mövzu və ideya baxımından davamlı olaraq müasirləşdirdiyini vurğulayıb: "Elçin Azərbaycan dramaturgiyasında ilk ədibdir ki, 26–27 yaşında postmodernizm üslubunda pyes yazıb. O, Azərbaycan teatrında son 70 ildə İlyas Əfəndiyevdən sonra ikinci dramaturqdur ki, Akademik Milli Dram Teatrının səhnəsində 11 tamaşası oynanılıb. Elçin Əfəndiyev yeganə dramaturqdur ki, onun 3 nəsr əsəri – "Ağ dəvə", "Mahmud və Məryəm", həmçinin "Ölüm hökmü" romanları səhnəşdirilib və tamaşaya qoyulub. Onun əsərləri təkcə öz ölkəsində deyil, dünyada da böyük auditoriya qazanıb.

Yubiley mərasiminin davamında Elçinin eyniadlı pyesi əsasında hazırlanan "Cəhənnəm sakinləri" tamaşası təqdim olunub.

Quruluşçu rejissoru Xalq artisti Azər Paşa Nemətov, rejissoru Anar Sadıqov, rejissor assistenti Dilbər İsmayılova, musiqi tərtibatçısı Kamil İsmayılov olan tamaşa böyük maraqla qarşılanıb və hərarətlə alqışlanıb. Tamaşada Azər Dadaşovun musiqisindən istifadə olunub. Əsas rollarda Xalq artistləri Məleykə Əsədova, Nurəddin Mehdixanlı, Əməkdar artistlər Elşən Rüstəmov, Mirzə Ağabəyli, aktyorlar Vüsal Mustafayev, Elçin Əfəndi, Ləman İmanova, Rüstəm Rüstəmov, Rada Nəsibova, Ramin Şıxəliyev və Xədicə Novruzlu çıxış ediblər.

1937-ci ilin məşum repressiyasının qaranlıqlarına işıq salan "Cəhənnəm sakinləri" tamaşası kədərli və amansız epizodları ilə xalqımızın yaşadığı faciənin dəhşətlərini canlandırıb.

Təntənəli mərasimdə tanınmış sənətçi və sənətşünasların Elçin yaradıcılığına verdiyi dəyəri, səslənən təbrikləri yazıçı 60 ildən artıq bir müddətdə yüksələn xətlə davam edən sənətinə verilən qiymət olaraq qəbul etdi. Göstərilən tamaşa isə yazıçının öz pərəstişkarlarına növbəti yubiley hədiyyəsi və növbəti yaradıcılıq hesabatı kimi dəyərləndirildi.

**Tahir AYDINOĞLU, "Xalq qəzeti"**

# "Bir səfirin manifesti" gürcü dilində

**Dünən Gürcüstan Milli Elmlər Akademiyasında Azərbaycanın xarici işlər nazirinin müavini, ADA Universitetinin rektoru, professor Hafiz Paşayevin gürcü dilinə tərcümə edilmiş "Bir səfirin manifesti" kitabının təqdimatı olub.**



Akademiyanın prezidenti, akademik Qiorqi Kvesitadze səfir Hafiz Paşayevin Azərbaycanın müstəqilliyini bərpa etdikdən sonra xaricdə ölkəmizin təmsil olunması, düzgün tanıdılması istiqamətində mühüm işlər gördüyünü vurğulayıb. O deyib ki, bu kitab oxucuların Azərbaycan diplomatiyası haqqında məlumatlandırılması baxımından çox önəmlidir.

Professor Hafiz Paşayev çıxış edərək "Bir səfirin manifesti"nin ərsəyə gəlməsinin tarixçəsindən söhbət açıb, nəşrdə real faktlarla yanaşı, öz daxili hisslərini və düşüncələrini qələmə aldığını bildirib.



Akademiyanın vitse-prezidenti Roin Metreveli, Gürcüstan təhsil və elm nazirinin müavini Nodar Papukaşvil, digər çıxış edənlər də "Bir səfirin manifesti" kitabının əhəmiyyətindən danışıblar.

# Səsini "dara çəkən" xanəndə – Sabir Mirzəyev

**...Otuz beş-qırx il öncə, isti yay günlərindən birində Cəlilabada gedirdik. Salyan ərazisində, bir yeməkxananın qarşısında sürücü avtobusu saxladı ki, mühərrik "nəfəsini dərsin", biz də çay içək. Görkəmli xanəndəmiz Sabir Mirzəyev də orada idi. Hamımız sənətkarın başına toplaşdıq. "Bu istidə xeyir ola?" – deyə soruşduq. Cavabı qısa oldu: "Cəlilabada, doğma Bayxanlı kəndinə gedirəm. Yurd üçün darıxmışam".**



Xeyli söhbət elədik. Kimi xanəndənin həm bəm, həm də zil pərdədə heyranedici səsindən, kimi "Çahargah"ı daha gözəl ifa etməsindən danışdı, kimi də onun "Mirzə Hüseyn segahı"nı, "Rast"ı, "Dəşti"ni məxsusi səsləndirdiyini vurğuladı. Təşəkkürünü bildirən sənətkar dedi: "Amma bəziləri məni İran muğam ifaçılığına xas zəngulələr vurmaqda suçlayır. Ola bilər, bəlkə də bu, mənə tanınmış xanəndə olmuş atam Nüsrət kişidən keçib. Hər bir halda, mən bunda bir qəbahət görmürəm".

Sonralar öyrəndim ki, Sabir Mirzəyev Cəlilabad şəhər mədəniyyət evində muğam dərsləri keçir, gənc istedadları başına yığıb onlara sənətin sirlərini mənımsədir. O zamanlar həftədə iki dəfə Bakıdan rayona gedib cavanlara dərs keçmək asan deyildi. Amma o, bunu sevə-sevə edirdi. Əməkdar artist, Prezident təqaüdçüsü Sabir Mirzəyev indi aramızda yoxdur. Ancaq Cəlilabadda xeyli gözəl xanəndə yetişib. Aralarında unudulmaz sənətkarı xatırladanlar da var, doğma yurdun "səs açan" möcüzəli bulaqlarının sirrini-sehrini aləmə yayanlar da. Xanəndənin nəvəsi – balaca Sabir Mirzəyev də oxuyur, mərhum Xalq artisti Əlibaba Məmmədov onun ifalarını bəyənib, qabiliyyətini təqdir edib.

Bir neçə gün əvvəl Beynəlxalq Muğam Mərkəzində unudulmaz xanəndə Sabir Mirzəyevin 80 illiyinə həsr olunan xatirə gecəsi keçirilib. Milli Konservatoriyanın rektoru, Xalq artisti Siyavuş Kərimi, Xalq artisti Ağadadaş Ağayev onun həyat və yaradıcılığından, muğam sənətimizdə qoyduğu izdən söz açıblar. Qeyd olunub ki, Sabir Mirzəyev 40 ildən çox Dövlət Filarmoniyasında, "Azərkonsert" birliyində, teleradio şirkətində çalışıb, ifa etdiyi "Qarabağın maralı", "Şuşanın dağları", "Nazlana-nazlana", "Gülə-gülə", "Aşiqəm" xalq mahnıları, muğamlar Azərbaycan musiqi mədəniyyətinin "qızıl fond"una daxil olub.

Gecədə BMM-in solistləri – Əməkdar artistlər Sevinc Sarıyeva, Arzu Əliyeva, Səbuhi İbayev, xanəndə Rəvanə Qurbanova, həmçinin Əməkdar artist Yusif Mustafayev, eləcə də gənc xanəndələr Xəyal Hüseynov və Nemət Mirzəyevin ifaları təqdim olunub. İfaçıları tarzən Rövşən Qurbanovun rəhbərliyində ansambl müşayiət edib.

**Əli NƏCƏFXANLI , "Xalq qəzeti"**

# Din xadimlərinin Kazan görüşü



**Qafqaz Müsəlmanları İdarəsinin sədri, şeyxülislam Allahşükür Paşazadə Kazan şəhərində bir sıra ikitərəfli görüşlər keçirib.**

QMİ sədri Rusiya Federasiyası Rusiya müsəlmanları Mərkəzi Ruhani İdarəsinin sədri, şeyx Talqat Tacuddin, Rusiya Federasiyası Müsəlmanları Ruhani İdarəsinin sədri, şeyx Ravil Qaynutdin, Moskva şəhərinin müftisi Albir Krqanov, Fələstin Dövlətinin Qazil-Qüzatı Məhəmməd Əl-Həbbaş, Beynəlxalq İslam Xeyriyyə Cəmiyyətinin sədri Abdulla Əl-Mətuq və bir sıra digər şəxsiyyətlərlə görüşərək, ikitərəfli əlaqələrin inkişaf məsələlərini müzakirə edib.

Şeyxülislam A.Paşazadənin Moskva və bütün Rusiyanın Patriarxı Zati-müqəddəsləri Kiril ilə ikitərəfli görüşü də keçirilib.

A.Paşazadə Patriarx Kirilə Ermənistanla Azərbaycan arasında uzun illər davam edən münaqişənin dini zəminə keçməsinin qarşısını almağa, eləcə də Cənubi Qafqazda qarşılıqlı etimadın bərpasına yönəlmiş fəaliyyətinə görə bir daha öz minnətdarlığını bildirib.

**"Xalq qəzeti"**

# Natiq Səfərovun "Sözə natiqlik" örnəyi



**Azərbaycan Yazıçılar Birliyinin "Natəvan" klubunda Azərbaycan bədii tərcümə sənətinin yaradıcılarından olan mərhum tərcüməçi Natiq Səfərovun 80 illiyinə həsr edilmiş "Sözə natiqlik" kitabının təqdimatı keçirilib.**

Tədbiri yazıçı Seyran Səxavət açaraq ustad qələm sahibi Natiq Səfərovun özünəməxsus xüsusiyyətlərindən, sözə həssaslığından, tərcümə sahəsindəki böyük xidmətlərindən söz açıb. AYB-nin sədr müavini Rəşad Məcid Natiq Səfərovu bənzərsiz insan və peşəkar tərcüməçi kimi xatırlayaraq "Sözə natiqlik" kitabını ərsəyə gətirənlərə təşəkkürünü bildirib.

Xalq şairi Ramiz Rövşən, tənqidçi Vaqif Yusifli və başqaları Natiq Səfərovun tərcümə sənətinə gətirdiyi yeniliklərdən, unudulmuş tərcümə sənətini peşəkar səviyyəyə yüksəltdiyindən, ustad tərcüməçi kimi ondan bəhrələndiklərindən danışıblar.

**T.RÜSTƏMLİ, "Xalq qəzeti"**

# Afrika filmləri Azərbaycanda



**Mərakeş Krallığının ölkəmizdəki səfirliyi 25-27 may tarixlərində Azərbaycanda ilk dəfə Afrika Filmləri Günlərini təşkil edəcək. Bu barədə Mərakeş Krallığının səfirliyindən bildirilib.**

Məqsəd Afrikanın müxtəlif kino mədəniyyətlərini nümayiş etdirmək, xalqlar arasında müxtəlifliyi və dialoqu təşviq etməkdir.

"Bu tədbir həm də Afrika ölkələrini tanıtmaq, onların mədəniyyətlərini, iqtisadiyyatlarını, xüsusiyyətlərini Azərbaycan xalqına çatdırmaq və bununla da Azərbaycanla Afrika ölkələri arasında əlaqələrin möhkəmlənməsinə və şaxələndirilməsinə töhfə vermək üçün bir fürsət rolunu oynayacaq", - səfirlik əlavə edib.

**Q.QƏZƏNFƏR, "Xalq qəzeti"**

# Beynəlxalq Mülki Müdafiə Təşkilatının Baş katibi FHN Akademiyasında



**Beynəlxalq Mülki Müdafiə Təşkilatının (BMMT) Baş katibi xanım Njupuo Yap Mariatu Fövqəladə Hallar Nazirliyinin Akademiyasına baş çəkib, ali təhsil müəssisəsinin fəaliyyəti ilə tanış olub.**

Qonağa ali təhsil ocağının yaranma tarixi və fəaliyyəti barədə ətraflı məlumat verilərək bildirilib.

BMMT-nin Baş katibi FHN-in Akademiyasının fəaliyyətini yüksək qiymətləndirib, təəssüratlarının müsbət olduğunu, müasir standartlara uyğun işlərin aparıldığını diqqətə çatdırıb.

**Q.QASIMOV, "Xalq qəzeti"**

# Dehli İrəvana hərbi-ticari körpü salır

**Hindistan "Fars körfəzi – Qara dəniz" layihəsinə məhsullarını Avrasiya İqtisadi İttifaqının (Aİİ) çoxmilyonluq bazarına çıxaracaq körpü kimi baxır. Amma bu marşrutda Ermənistanın hərbi xarakterli xüsusi statusa malik olacağını da vurğulamağı unutmur.**



"Üçlüy"ün (Hindistan, İran və Ermənistan) ortaq layihəsi barədə "Sputnik Armeniya"ya açıqlama verən Hindistanın iqtisadi-ticari təşkilatının prezidenti Asif İkbalın sözlərinə görə, hazırda bu məsələ üç ölkənin liderləri səviyyəsində müzakirə olunur. Layihəyə özəl sektorun da cəlb olunmasının planlaşdırıldığını deyən İkbal Hindistanın 2024-cü ildə Aİİ-də müşahidəçi olmağa hazırlaşdığını da bəyan edib. O, Ermənistanla əməkdaşlıqdan həvəslə danışıb:

"Layihəmiz işə düşəndən sonra Ermənistanla bütün istiqamətlərdə, o cümlədən müdafiə sahəsində əməkdaşlığımızı dərinləşdirmək imkanı əldə edəcəyik. Bu məqsədlə yaxın günlərdə Hindistanın Ermənistandakı səfirliyinin yanında sahəni kurasiya edəcək bir attaşe təyin olunacaq. İkitərəfli əməkdaşlığın başqa sahələrinə gəldikdə isə hazırda ölkələrin kənd təsərrüfatı şirkətləri arasında bir sıra müqavilələr imzalanıb və kənd təsərrüfatı turizmi istiqamətini inkişaf etdirmək barədə də düşünürük. Hindistan şirkətlərinə Ermənistanda məişət və heyvan mənşəli tullantıları emal etməyə və ondan təbii qaz almağa imkan verəcək daha iki müqavilə də imzalanma mərhələsindədir".

**ARAYIŞ: 2023-cü il martın əvvəlində Ermənistan XİN-in başçısı A.Mirzoyan Hindistan mallarının Rusiyaya və Qara dəniz vasitəsilə Avropa ölkələrinə tranzit yolunu qısaldacaq ticarət dəhlizinin verilməsinin mümkünlüyü barədə danışmışdı. Hayastanın baş diplomatı Dehliyə faktiki olaraq "Fars körfəzi – Qara dəniz" layihəsinə qoşulmağı təklif etmişdi. Göründüyü kimi, bu plana layihənin ideoloqu Tehranın da siyasi iradəsi və razılığı var.**

Ermənistanın "Customised Industrial Supplies" adlı turizm şirkətinin sahibi Sebux Kazaryanın İrəvan-Dehli arasındakı əməkdaşlıqla bağlı söylədikləri xüsusi maraq doğurur. Kazaryan deyib ki, erməni və hind xalqlarını bir-birinə çox şey birləşdirir: "Ənənəvi dostluq münasibətlərindən savayı, iki xalqın bəzi mübahisəli, problemli məsələlərə baxışları, demək olar ki, eynidir".

Turizmlə məşğul olan erməninin "bəzi problemli məsələlər" dedikdə Hindistanın Pakistanla Kəşmir məsələsinə, Ermənistanın Azərbaycanla Qarabağ münaqişəsinə baxışlardakı oxşarlığı nəzərdə tutduğu şübhə doğurmur.

Ermənistan XİN-in başçısının müavini Mnasakan Safaryan isə agentliyə verdiyi açıqlamada qeyd edir ki, onun ölkəsi xarici siyasət idarəsinin hindistanlı həmkarları ilə, investisiya layihələri daxil olmaqla, bütün istiqamətlər üzrə mütəmadi iş aparır. Onun sözlərinə görə, hazırda Hindistan–Ermənistan işgüzar şurasının yaradılması üzərində iş gedir, buna paralel olaraq beynəlxalq avtomobil daşımaları üzrə ikitərəfli sazişin imzalanmasına dair danışıqlar davam etdirilir. Nazir müavini yaxın günlərdə Hindistandan "test-konteyner"lərin Ermənistana çatdırılmasını planladıqlarını da sözlərinə əlavə edib.

Fəqət, erməni diplomat həmin "test-konteyner"lərin içindəki yükün mülki, yoxsa hərbi xarakterli olacağı ilə bağlı heç bir açıqlama verməyib. Turizm, məişət tullantısı adı altında İrəvanla Dehli arasında aparılan bütün danışıqların və "proje"lərin görünməyən tərəfində hərbi-sənaye xarakterli ticarətin, silah alverinin dayanması faktı sıravi ekspertlərə də gün kimi aydındır.

Sadəcə, hayların "xəyanət minasını" hindlilərin saldığı və Hayastandan keçən asma körpünün hansı kəsiyində yerləşdirdikləri hələlik məlum deyil. Minadöşəmə sahəsində "peşəkarlaşmış" İrəvanın Dehlini körpünün o üzündə qoymaq ehtimalı isə yüz faizə yaxındır...

***İ.HƏSƏNQALA, "Xalq qəzeti"***

## "The Washington Post":

# Nüvə silahından heç vaxt istifadə etməyək!

**ABŞ-ın dünyaca nüfuzlu "Vaşınqton Post" nəşri dünənki sayında 1945-ci ilin sentyabrında nüvə silahının istifadəsinin yapon xalqına böyük fəlakətlərə gətirdiyi və bəşəriyyət üçün taleyüklü məsələ olduğu barədə maraqlı məqalə dərc edib. Əməkdaşımızın tərcümə etdiyi həmin yazını qəzetimizin oxucularına təqdim edirik.**



"Yaponiyanın Xirosima şəhərindəki Sülh Memorial Parkında memorial günbəz qarşısında nüvə silahlarına etiraz edən buddist rahib deyib ki, bu silahdan heç vaxt istifadə etməyək. Çünki qarşıdakı əsrlərdəki nəsillərimizi də məhv edə bilərik.

Həmin buddist 1945-ci il avqustun 6-da Yaponiyanın Xirosima və Naqasaki şəhərlərinə ABŞ təyyarəsi tərəfindən atılan atom bombasını xatırladıb və deyib ki, həmin şəhərlər dərhal yerlə-yeksan oldular.

Bu partlayış möcüzəvi şəkildə atom silahlarının qəzəblə istifadə edildiyi yeganə hal olaraq qalır. Dünya üçün fəlakət olacaq nüvə müharibəsini "qiyamət saatı" hesab edən Atom Alimlərinin Bülletenində xatırlanıb ki, 1945-ci ildə, yəni, 78 il əvvəl ABŞ Silahlı Qüvvələrinin Xirosima və Naqasaki şəhərlərinə atdıqları atom bombalarının dəhşətli partlayışları nəticəsində 210 minə yaxın yapon mülki vətəndaşı həlak olub. Onların çoxu uşaq, qadın və ahıllar olub.

İkinci Dünya müharibəsindən sonra atom bombasının dağıdıcı gücündən narahat olan mütəxəssislər tərəfindən Atom Alimləri Federasiyası yaradılıb. Federasiyasının məlumatına görə, hazırda planetimizdəki doqquz nüvə ölkəsinin ehtiyatında təxminən 12 min 500 nüvə başlığı var. Bu silahların çoxu 1945-ci ildə Yaponiyaya qarşı istifadə edilən adi nüvə silahlarından min dəfələrlə güclüdür.

Mütəxəssislərin fikrincə, Rusiya Prezidenti Vladimir Putinin Ukraynanı zəbt etmək üçün qanlı savaşda "taktiki" nüvə silahından istifadə etməklə hədələməsi, eləcə də Çin və Şimali Koreyanın uzaq məsafələri hədəfə alan nüvə başlıqları daşıyan raketlər hazırlaması ciddi fəlakətlərə səbəb ola bilər.

"Soyuq müharibə"nin bitməsindən üç onillik keçməsinə baxmayaraq, bu gün də heç bir lider nüvə silahından istifadəyə cəsarət etmir, çünki onun ölkəsi buna cavab olaraq, daha dağıdıcı nüvə zərbəsi alacaq".

Məqalənin sonunda deyilir ki, nüvə gücləri bir-biri ilə birbaşa silahlı münaqişədən qaçmaq üçün çox səy göstərirlər. Narahatedici amil isə budur ki, adi müharibələrin nüvə müharibələrinə çevrilmək ehtimalı böyükdür.

Məqalə bu sözlərlə bitir: "Unutmayaq ki, nüvə silahı bəşəriyyət üçün bəladır!"

***Tərcümə etdi: Əliqismət BƏDƏLOV, "Xalq qəzeti"***

# G7 liderləri Ukrayna ilə bağlı bəyanat qəbul ediblər



**G7 ölkələrinin liderləri Yaponiyanın Xirosima şəhərində keçirilən iclasda Ukraynadakı vəziyyətlə bağlı bəyanat qəbul ediblər. BBC xəbər verir ki, sənəddə Ukraynaya iqtisadi yardım göstərilməsi öz əksini tapıb.**

Bildirilib ki, 2023-cü il və 2024-cü ilin əvvəli üçün büdcə dəstəyi artıq qəbul olunub. Liderlər "Taxıl sazişi"nin genişləndirilməsi və uzadılmasını dəstəkləyir.

G7 Rusiyanı məğlub etmək üçün Ukraynaya hərbi, maliyyə, humanitar və diplomatik dəstək verəcək. Bundan başqa, G7 Rusiyanın enerji ixracından əldə etdiyi gəlirləri azaltmaq üçün tədbirlər görəcək. Bu ölkələr nüvə enerjisi sahəsində Rusiyadan asılılığı dayandırmağa çalışacaq. Eyni zamanda, G7 Rusiyaya sənaye avadanlığı və texnologiyalarının ixracını məhdudlaşdırmağa davam edəcək.

Yeri gəlmişkən, Böyük Britaniyanın Baş naziri Rişi Sunak Xirosimada keçirilən sammit çərçivəsində "Sky News" telekanalına müsahibəsində deyib ki, "Qərb ölkələrinin liderləri Ukraynanı dəstəkləməklə bağlı mövqeyindən geri çəkilməyəcək".

"Rusiya bilməlidir ki, bizim və digər ölkələrin Ukraynanı dəstəkləməklə bağlı əzmi sarsılmaz olaraq qalır. Qərb ölkələri Kiyevə təkcə burada və indi deyil, həm də uzunmüddətli perspektivdə yardım göstərmək niyyətindədir", – o, vurğulayıb.

Qeyd edək ki, Böyük Britaniya 2021-ci il fevralın 24-də Rusiyanın Ukraynaya hücumundan keçən müddət ərzində rusiyalı 86 fiziki şəxs və şirkətə qarşı sanksiyalar tətbiq edib.

***"Xalq qəzeti"***

## Çin və Orta Asiya əməkdaşlığı:

# "Orta dəhliz" ideyası reallığa doğru




**Dünən Çində Böyük İpək Yolunun başlandığı tarixi məkan hesab olunan qədim Sian şəhərində Çin-Orta Asiya dövlətləri liderlərinin sammiti keçirilib. Belə yüksək formatda tədbir ilk dəfədir ki, təşkil olunur. Dünyanın siyasi isteblismenti bu səbəbdən sammiti diqqətlə izləyir. Əlbəttə mühüm məqamlardan biri Rusiyanın tədbirdən kənarda qalmasıdır.**

***Ekspert rəyi***



**Aydın İBRAHİMOV,**
**BDU-nun Xarici ölkələrin iqtisadi-siyasi coğrafiyası və turizm kafedrasının müdiri, professor, siyasi icmalçı**

Qeyd etmək lazımdır ki, Çin və Orta Asiya dövlətləri yaxşı başa düşür ki, qarşılıqlı əlaqələri inkişaf etdirmək bütün tərəflərin xeyrinədir. Bu mənada qədim Çin şəhəri Sianda keçirilən Çin–Orta Asiya liderlərinin sammiti böyük əhəmiyyət daşıyır. Bu mühüm tədbir dünyanın diqqət mərkəzindədir.

Görünən budur ki, Çin iqtidarı son illər öz mövqelərini gücləndirmək siyasəti həyata keçirir. Dünyanın ikinci böyük iqtisadi gücü olan Çinin iqtisadiyyatı genişlənir. Qədim İpək yolu layihəsinin gündəmə gəlməsi də bununla bağlıdır.

Bu layihə bizim üçün də çox önəmlidir. Çünki Çindən başlanan bu yol Qazaxıstan və Türkmənistandan keçərək Xəzər dənizi üzərindən Azərbaycana daxil olur. Zəngəzur vasitəsilə mal və əmtəələr Türkiyəyə, oradan da Avropaya, eləcə də əks istiqamətdə daşınacaq.

Bu məqamda vurğulamaq lazımdır ki, Rusiya Prezidenti Vladimir Putinin təşəbbüsü ilə bu günlərdə Rusiya ilə İran arasında Astara–Rəşt dəmir yolunun tikintisi ilə bağlı müqavilənin imzalanması mühüm hadisədir. Bu layihə Azərbaycanın regionda rolunu dəfələrlə artırır.

Hadisələrin bu məcrada inkişaf etməsi dünyanın geosiyasi mənzərəsində baş verən dəyişikliklərlə bağlıdır. Yəni, gözümüzün önündə planetin yeni iqtisadi və siyasi düzəni formalaşır.

Çin hazırkı dönəmdə qlobal lider olmaq iddialarını ortaya qoyub. Əvvəllər Pekin özünü yalnız qlobal iqtisadi oyunçu kimi təqdim edirdi, indi isə o, dünya siyasətinin aparıcı aktorlarından birinə çevrilir. Çinin bu siyasəti ABŞ-ın dünya siyasətində hegemon olaraq qalmaq niyyətlərinə ziddir.

Əlbəttə, Çin iqtisadi gücdən siyasi gücə trasformasiya olunur. Biz onun yaxın gələcəkdə tədricən coğrafi genişlənməsini də görəcəyik. Bu, regionda yeni gərginlik şəraiti yaradır. Hazırda böyük geosiyasi arenada ABŞ, Çin və Rusiyanın maraqları toqquşur.

Nəzərə almaq lazımdır ki. hadisələr Xəzər dənizi regionuna yaxın coğrafiyada baş verir və bizim maraqlarımıza da sirayət edir. Buna görə Azərbaycan bu hadisələri kənar müşahidəçi rolunda izləyə bilməz. Biz bir tərəfdən öz milli maraqlarımızı müdafiə etməliyik, o biri tərəfdən isə güclü dövlətlərin arasında gedən münaqişələrin obyektinə cəlb olunmamağa çalışmalıyıq.

"Reyters" agentliyi Çin Xalq Respublikasının Sədri Si Cinpinin tədbirdəki əhatəli nitqini tərcümə edərək, operativ qaydada geniş oxucu auditoriyasına yayıb. Yazıda qeyd olunur ki, Çin lideri ölkəsinin Orta Asiya dövlətlərinin qarşıdakı illərdə sürətli inkişafı və tərəqqisi ilə bağlı hazırladığı geniş proqram barədə danışıb. Vurğulayıb ki, rəsmi Pekin Orta Asiyanın yüksək inkişafa malik infrastruktura və nəhəng ticarət imkanları olan regiona çevrilməsini arzulayır və bu məqsədlə kifayət qədər sərmayə yatırmağa hazırdır.

Si Cinpinin sözlərinə görə, "5+1 formatı"nda, yəni, beş Orta Asiya ölkəsi və Çin dövləti regionda birgə sənaye müəssisələrinin açılması, yeni iş yerlərinin yaradılması, turizmin sürətli inkişafının təmin edilməsi və s. mühüm istiqamətlərdə vaxt itirmədən böyük işlərə başlamaq əzmindədir.

Xatırladaq ki, bütün böyük layihələrin icrası üçün iri vəsaitlər lazımdır. Hazırda dünyanın ikinci böyük iqtisadiyyatına sahib Çin belə maliyyə imkanlarına malikdir. Rəsmi Pekin Orta Asiya regionuna maliyyə xərcləməkdə "xəsislik etmək" fikrində deyil. Ötən il Çin ilə Orta Asiya dövlətlərinin arasında ticarət dövriyyəsi 70 milyard dollardan çox olub. Təkcə Qazaxıstanla Çinin ümumi ticarətinin həcmi 2022-ci ildə 31 milyard dolları ötüb.

Si Cinpin sammitdəki nitqində xüsusi vurğulayıb ki, davamlı, uzunmüddətli inkişaf üçün Orta Asiya dövlətləri bir-birləri ilə qarşılıqlı inam və etimad əsasında hərtərəfli əlaqələr qurmalı, qonşularının suverenliyinə və ərazi bütövlüyünə hörmətlə yanaşmalıdır. Sözün qısası, Çin regionun siyasi və iqtisadi cəhətdən sabit olmasını arzulayır və bu istiqamətdə mühüm diplomatik addımlar atmaq niyyətindədir.

Vurğulamaq lazımdır ki, "5+1 formatı"na daxil olan ölkələr xarici regiona müdaxilənin qətiyyətlə əleyhinə çıxış edirlər, onlar "rəngli inqilablar"ın regiona "gətirilməsi" hallarına qarşıdırlar. Bu arqument isə Orta Asiya respublikalarının da milli maraqlarına uyğundur. Rəsmi Pekin Vaşinqtondan fərqli olaraq, Orta Asiyadakı tərəfdaş ölkələri qarşısında insan haqları və demokratiya və s. bu kimi tələblər irəli sürməyəcək.

Si Cinpin Orta Asiya dövlətlərininin liderlərini neft və təbii qaz ticarətinin həcmini artırmağa səsləyib. O, həmçinin bildirib ki, Pekin Orta Asiya regionu, Xəzər dənizi və Cənubi Qafqaz üzərindən (Zəngəzur dəhlizi - müəllif) keçəcək "Orta dəhliz"in səmərəli fəaliyyət göstərməsinə böyük önəm verir. Çin lideri Orta Asiya respublikalarından ölkəsinə neft və qazın nəql olunması üçün inşa edilən "D xətti"nin tikintisini sürətləndirməyi də vəd edib.

Çin mediası Sianda keçirilən ikigünlük sammiti ölkə diplomatiyasının böyük uğuru kimi dəyərləndirib. Xatırladaq ki, bu günlərdə "Böyük yeddilər" Hirosimada bir araya gəliblər və orada Çinin dünyada artan iqtisadi və hərbi gücünə qarşı müzakirələr aparılır. Pekin qlobal müstəvidə onun əleyhinə yaradılan bu neqativ imicin qarşını almağa çalışır.

Sonda bildirək ki, Çin lideri nitqində Rusiya–Ukrayna müharibəsi barədə bir kəlmə də olsun söz açmayıb. Bir çox təhlilçilər qeyd edirlər ki, son iki yüz ildə Rusiyanın nüfuz dairəsində olan Orta Asiyaya Çinin diqqət göstərməsi rəsmi Moskvanın ürəyincə deyil, amma Rusiyanın başı Ukraynadakı müharibəyə qarışdığından və Çindən iqtisadi və hərbi cəhətdən xeyli asılı olduğundan, bu məsələdə susur.

***Məsaim ABDULLAYEV, "Xalq qəzeti"***

# Bakıda bədii gimnastika üzrə Avropa çempionatı davam edir

## *Lent və gürzlərlə ən güclülər müəyyənləşib*

**Bakıda gözəl idman növü olan bədii gimnastika üzrə Avropa çempionatı uğurla davam edir. Hollivud abhavasında dizayn olunmuş Milli Gimnastika Arenasının səhnəsində keçirilən yarışın üçüncü günündə də yarış iştirakçıları xalça üzərində parlaq çıxışları ilə göz qamaşdırıblar. Nümayiş etdirdikləri çıxışlar ətrafında fikirlərini bölüşən əcnəbi idmançılar, həm də yarışların yüksək təşkil olunduğunu vurğulayıb, ölkəmiz və paytaxt Bakı ilə bağlı xoş təəssüratlarını bölüşüblər.**



Xorvatiyalı idmançı Tamara Artic Avropa çempionatında iştirakın onun yarış təcrübəsinin zənginləşməsinə töhfə verdiyini bildirir. Qeyd edir ki, Bakıda təşkil edilən yarışları çox sevir və bu fürsət əlinə düşdüyü üçün məmnundur.

Estoniya komandasının üzvü Ester Kreytsman Milli Gimnastika Arenasında gözəl şəraitin yaradıldığını, burada hər şeyin onun xoşuna gəldiyini deyir, hətta Bakıda qalmağa da hazır olduğunu vurğulayır. Böyüklər arasında Avropa çempionatında ilk dəfə mübarizə apardığını bildirən gimnast potensialından maksimum istifadə üçün böyük səy göstərdiyini bildirib.

Milli Gimnastika Arenasının indiyədək çıxış etdiyi ən möhtəşəm və rahat məkanlardan biri olduğunu deyən latviyalı Nikola Vasileva haqlı olaraq qeyd edir ki, məhz bütün bu amillər yüksək səviyyədə mübarizə aparmağa köməkdir. Paytaxtımızda bir çox beynəlxalq turnirə, dünya kuboku yarışlarına qatıldığını dilə gətirən gimnast, bu yarışın da həmişəki kimi yüksək səviyyədə keçdiyini etiraf edir."

Nikola Vasileva Bakıdan hər zaman xoş təəssüratlarla ayrıldığını bildirir: "Valideynlərim Bakıya gələ bilmədikləri üçün çıxışımı onlayn izləyirlər. Bakının gözəlliyi barədə Latviyada dostlarıma həmişə danışıram. Çalışıram ki, hər dəfə burada olanda şəhərin görməli yerlərini gəzim. Bakıya həm qədim, həm müasir şəhər demək olar. Gözəl arxitekturaya malik binalar xüsusilə diqqətimi cəlb edir.

Monteneqrolu Yelizaveta Luqovskix azarkeşlərin möhtəşəm dəstəyinin onları ruhlandırdığını deyir. Bakıda keçirilən gimnastika yarışlarının həmişə baxımlı olduğunu qeyd edən idmançı budəfəki turnirin daha da rəngarəng və maraqlı keçdiyini vurğulayır: "Çıxışlarımızdan həmişə razı qalsaydıq, bu, çox maraqsız olardı. Məsələn, top və halqa ilə təsnifat yarışlarındakı çıxışımdan bir qədər narazı qaldığım üçün növbəti dəfə xalçaya daha iddialı çıxmalıyam ki, istədiyim nəticəni əldə edim".

"Qoca qitə"nin parlaq gimnastika ulduzları yarışın üçüncü günündə də bir-birindən maraqlı çıxışlar nümayiş etdirdilər. Avropanın ən güclü komandalarının bir araya gəldiyi Milli Gimnastika Arenasında layiqlilərin seçilməsi üçün gərgin rəqabətlə yanaşı, idman və incəsənətin harmoniyasından doğan gözəllik və zərifliyin nümayişi gimnastikasevərlərin zövqünü oxşadı.

Yarışın üçüncü günündə böyüklər arasında çoxnövçülük üzrə təsnifat mərhələsi başa çatıb. İştirakçılar 24 idmançının mübarizə apardığı çoxnövçülük proqramı və ayrı-ayrı alətlər üzrə finallar uğrunda qüvvələrini sınayıblar. Gimnastlar gürz və lentlə kompozisiyalar ifa ediblər.

Komandamızın üzvü Zöhrə Ağamirova gürzlərlə hərəkətlərin icrasında 31.500 xal toplayaraq üçüncü pillədə qərarlaşmaqla, həm də finala yüksəlib.

İdmançımız həmçinin dörd hərəkətin yekununda 95,750 xalla beşinci pillədə qərarlaşaraq çoxnövçülük üzrə həlledici mərhələyə vəsiqə əldə edib. Xatırladaq ki, idmançımız halqa və topla da finala yüksəlmişdi.

Gimnastımız bu gün çoxnövçülük üzrə finallarda, mayın 21-də isə ayrı-ayrı alətlər üzrə final mərhələsində mübarizəyə qoşulacaqlar.

Bu gün, həmçinin böyüklərdən ibarət qrup komandalarının təsnifat mərhələsində çıxışlarına start veriləcək.

Xatırladaq ki, Azərbaycanın Gövhər İbrahimova, Səkinəxanım İsmayılzadə, Mədinə Aslanova, İlahə Bahadırova, Ayan Sadıqova və Zəhra Cəfərovadan ibarət gənclər komandası isə qrup hərəkətlərində çoxnövçülük və beş topla proqramda iki bürünc medal qazanıb.

***Leyla QURBANOVA,***
***"Xalq qəzeti"***

# ELM XƏBƏRLƏRİ

**Elm və Təhsil Nazirliyi İnformasiya Texnologiyaları İnstitutunda ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə və Ümumdünya Telekommunikasiya və İnformasiya Cəmiyyəti Gününə həsr olunmuş elmi seminar keçirilib.**




AMEA-nın vitse-prezidenti, İnformasiya Texnologiyaları İnstitutunun baş direktoru, akademik Rasim Əliquliyev ümummilli liderin ötən əsrin ikinci yarısından etibarən Azərbaycanda informasiya cəmiyyətinin meydana gəlməsi və inkişaf etdirilməsi, informasiya-kommunikasiya texnologiyalarının inkişafı və bu istiqamətdə kadrların yetişdirilməsində əvəzsiz xidmətlərinin olduğunu xatırladıb. Sonra alim Azərbaycanda süni intellekt texnologiyalarının meydana gəlməsi və inkişafı tarixi haqqında geniş məruzə ilə çıxış edib. O, ölkəmizdə Lütfi Zadə nəzəriyyəsinin formalaşması və inkişafından bəhs edərək Lütfi Zadə - Azərbaycan əlaqələri, qeyri-səlis məntiq nəzəriyyəsinin davamçıları, onların bu sahədə dünya elminə verdiyi töhfələrdən danışıb.

Elmi seminarda AMEA-nın müxbir üzvü, texnika elmləri doktoru Ramiz Alıquliyevin "Təbiətdən qaynaqlanan süni intellekt alqoritmləri" və AzScienceNet Şəbəkə İdarəetmə Mərkəzinin rəhbəri, texnika üzrə fəlsəfə doktoru Babək Nəbiyevin "IV Sənaye İnqilabının texnoloji çağırışları kontekstində kibertəhlükələr və onların intellektual analizi problemləri" mövzusunda məruzələri dinlənilib.

* * *

***AMEA-nın Fəlsəfə və Sosiologiya İnstitutunda Belçikanın Azad Universitetinin professoru Sebestiyan Busua ilə görüş keçirilib.***



İnstitutun baş direktoru, fəlsəfə elmləri doktoru, professor İlham Məmmədzadə qonağı salamlayaraq, rəhbərlik etdiyi müəssisənin elmi fəaliyyəti və beynəlxalq əlaqələrindən bəhs edib. Qonaqpərvərlik üçün minnətdarlığını bildirən S.Busua bildirib ki, ölkəmizə səfəri Azərbaycana həsr olunmuş kitabın hazırlaması ilə əlaqədardır.

Sebestiyan Busua Azərbaycan, Şuşa və Qələbə, Qarabağın Azərbaycan mədəniyyətində yeri və rolu, həmçinin Fəlsəfə və Sosiologiya İnstitutunun Avropa universitetləri ilə əlaqələri kimi mövzularla maraqlandığını bildirib. Suallar ətrafında müzakirə aparılıb və qeyd edilib ki, bununla bağlı ətraflı olaraq Sebestiyan Busuaya müvafiq materiallar təqdim ediləcək.

***Elm və Təhsil Nazirliyinin Botanika İnstitutunun bir qrup əməkdaşı Neftçala rayonu ərazisində ekspedisiyada olub. Ekspedisiyanın məqsədi Xəzər dənizi sahilində erkən yaz florasının qeydə alınması və bitki örtüyünün müasir vəziyyətinin öyrənilməsidir.***



Tədqiqatlar Kür çayının mənsəbi, Xəzərin sahilboyu ərazisi (30 km) və sahil yaxınlığında yerləşən Uzunbabalı, Bankə, Yenikənd, Qırmızı şəfəq, Qaravəli, İkinci Mayak, Birinci Mayak, Həsənabad, Mirzəqurbanlı, Mikayıllı, Şirvanlı kəndlərində aparılıb. Çöl tədqiqatları zamanı məlum olub ki, rayonun bitki örtüyündə yulğun formasiyalarının yayılması zonal xarakter daşıyır. Kürün Xəzərə qovuşan ərazisində balıqçılıq və örüş amilləri səhralaşma prosesinin güclənməsinə səbəb olur.

* * *

***AMEA-nın Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun Gənc Alim və Mütəxəssislər Şurasının sədri, filologiya üzrə fəlsəfə doktoru Şəfa Əliyeva və elmi işçi Lalə Ələkbərova hazırda davam edən "Erasmus" (European Region Action Scheme for the Mobility of University Students) proqramı çərçivəsində Polşanın Bialystok Universitetində tələbələrə mühazirə oxuyublar.***



Qeyd edək ki, "Erasmus" proqramı Ədəbiyyat İnstitutunun şöbə müdiri, sosiologiya üzrə fəlsəfə doktoru Samir Səttarov və hazırda Polşada olan gənc alimlərin səyləri ilə qazanılıb. Bialystok Universitetində proqram çərçivəsində L.Ələkbərova və Ş.Əliyeva klassik Azərbaycan ədəbiyyatının görkəmli nümayəndələrinin yaradıcılığı və onların Polşa ədəbiyyatında təzahürü, bədii cərəyanlara müasir ədəbi-nəzəri baxış, XX əsrdə ədəbi və elmi məktəb yaratmış sənətkarlar, eləcə də akademik İsa Həbibbəylinin milli ədəbiyyatda dövrləşdirmə konsepsiyası ilə bağlı məruzələrlə də çıxış ediblər.

***Hazırladı:***
***Ə.ƏLİYEV, "Xalq qəzeti"***


## "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" MMC

## AÇIQ TENDER ELAN EDİR

Lot - 1. Bakı şəhəri ərazisində səkilərdə, həyətlərdə, park və bağlarda təmir, yenidənqurma və abadlıq işlərinin satın alınması.

Tender iştirakçılarına təklif olunur ki, öz tender təkliflərini möhürlənib imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə imkanlarına malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyən təşkilatlar müəyyən məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra müsabiqə üçün təkliflərini təqdim edə bilərlər (əlaqələndirici şəxs - Əhməd Məmmədov 496-52-05) .

İştirak haqqı 3000,00 manatdır.

İştirak haqqı heç bir halda qeri qaytarılmır.

İddiaçılar tenderdə iştirak haqqını aşağıdakı hesaba köçürməlidirlər: Təşkilat-Bakı Şəhər İcra Hakimiyyətinin "Bakı Şəhər Əsaslı Tikinti və Təmir" Məhdud Məsuliyyətli Cəmiyyəti

H/h- AZ22IBAZ38030019446253269215
VÖEN-1702563281
Kod- 805625
VÖEN- 9900001881
M/h- AZ03NABZ01350100000000002944
SWİFT-IBAZAZ2X

İddiaçılar tenderdə iştirak üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- tenderdə iştirak etmək üçün ərizə;
- tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
- tender təklifi tender zərflərinin açıldığı gündən sonra azı 100 bank günü təşkil etməlidir;
- tender təklifinin 1 faizi həcmində bank təminatı;
- tender təklifi təminatının qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır;
- müqavilənin yerinə yetirilməsinin təminatı müqavilənin yerinə yetirilmə müddətindən sonra 30 bank günü çox olmalıdır. Müqavilənin yerinə yetirilməsi təminatı 5 faizdir;
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə aid yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergi ödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə sənəd;
- mənfəət vergisinin bəyannaməsi (2022-ci ili əhatə etməli və hesabat vergi orqanı tərəfindən məktubla təsdiq edilməlidir. Təsdiq məktubu elektron qaydada əldə olunduqda notarial təsdiqlı təqdim edilməlidir);
- maliyyə vəziyyəti haqqında hesabat, mənfəət və zərər haqqında hesabat, kapitalda dəyişikliklər haqqında hesabat və pul vəsaitlərinin hərəkəti haqqında hesabat. (2022-ci ili əhatə etməli və hesabatlar müstəqil auditor tərəfindən təsdiq olunmalıdır);
- öz əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanı, habelə ödəmə qabiliyyəti olması, müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması və məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə sənəd;
- iddiaçının son bir il ərzində maliyyə vəsaiti haqqında bank tərəfindən verilmiş arayış;
- iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
- iddiaçının oxşar təyinatlı və analoji işlər sahəsində azı 3 milyon manat həcmində müqavilələri və təhvil - təslim aktları təqdim edilməlidir;
- satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri,yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması,yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə sənəd;
- iddiaçının texniki imkanları barədə məlumat (əsas şərtlər toplusuna əsasən);
- müvafiq kadr imkanları barədə məlumat (əsas şərtlər toplusuna əsasən);
- sahibkarlıq subyektinin meyarını müəyyən edən sənəd;
- müvafiq fəaliyyət sahəsini həyata keçirmək üçün lisenziya (əlavələri ilə birlikdə).

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildəki tender sənədləri Azərbaycan dilinə tərcümə edilməlidir). İddiaçılar tenderlə bağlı sualları tender komissiyasına yazılı şəkildə ünvanlaya bilərlər.

Tender proseduru "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak üçün ixtisas göstəricilərinə aid sənədləri 3 iyul 2023-cü il saat 17.00-a, tender təkliflərini və tender təkliflərinin təminatlarını isə möhürlənib imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə Bakı, Nəcəfqulu Rəfiyev küçəsi 17 nömrəli ünvana 13 iyul 2023-cü il saat 17.00-a qədər təqdim etməlidirlər.

İddiaçıların təklifləri 14 iyul 2023-cü il saat 10.00-da Bakı, Nəcəfqulu Rəfiyev küçəsi 7 nömrəli ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri açılış prosedurunda iştirak edə bilərlər.

***Tender komissiyası***

## "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" Qapalı Səhmdar Cəmiyyəti

*tabeliyindəki "Dənizçi təmir-tikinti" MMC üçün tələb olunan tikinti materiallarının satın alınması məqsədilə*

## Müsabiqə Elan Edir

Müsabiqədə iştirak etmək istəyən şəxslər www.asco.az səhifəsinə daxil olmaqla elanlar bölməsindən əlavə sənədləri və ətraflı məlumat əldə edə bilərlər. Müraciət üçün son müddət 2023-cü il mayın 24-ü saat 16.00-dəkdir. Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildəki tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).Göstərilən vaxtdan gec təqdim olunan zərflər açılmadan geri qaytarılacaqdır.

Əlaqə telefonu- (012) 404-37-00, daxili: 1242.

Ünvan- Bakı, Mikayıl Useynov küçəsi 2.

## "Ağsu Konserv-1" ASC səhmdarlarının nəzərinə !

30 iyun 2023-cü il saat 12.00-da "Ağsu Konserv-1"ASC səhmdarlarının illik ümumi yığıncağı keçiriləcəkdir.

**Yığıncağın gündəliyi:**

**1.** Səhmdar cəmiyyətin 2022-ci il üçün maliyyə-təsərrüfat fəaliyyətinin nəticələrinin müzakirəsi və təsdiqi.

**2.** Təşkilati məsələlər.

**3.** Cari məsələlər.

Yığıncaqda bütün səhmdarların iştirakı vacibdir.

Telefon- 050 -352- 21- 82.

Ünvan- Ağsu şəhəri, M.Ə.Rəsulzadə küçəsi 47.

***İdarə heyəti***

## "Savalan" ASC səhmdarlarının nəzərinə!

5 iyul 2023-cü il saat 11.00-da Bakı şəhəri, Keşlə qəsəbəsi, 1-ci Önünə küçəsi 19 nömrəli ünvanda "Savalan" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

İştirakçıların qeydiyyat vaxtı iclas günü səhər saat 9.00-dan 11.00-a qədərdir.

**İclasın gündəliyi:**

**1.** "Savalan" ASC-nin 2022-ci il üçün maliyyə hesabatının müzakirəsi və təsdiqi.

**2.** "Savalan" ASC-nin bəzi əmlaklarının yüklülüyü və bununla bağlı yerinə yetirilmiş tədbirlər.

Əlaqə telefonu: (012) 567- 41- 09 (daxili-16).

***İdarə heyəti***

## "Sənaye Ventilyasiya" ASC səhmdarlarının nəzərinə!

5 iyul 2023-cü il saat 11.00-da Bakı şəhəri, Nizami rayonu, Ə.Nəvai küçəsi 13 nömrəli ünvanda "Sənaye Ventilyasiya" ASC səhmdarlarının növbəti illik ümumi yığıncağı keçiriləcəkdir.

**Gündəlikdəki məsələlər:**

**1.** "Sənaye Ventilyasiya" ASC-nin 2022-ci il üçün maliyyə hesabatının müzakirəsi və təsdiqi.

**2.** Səhmdar Nəsimi Dadaşovun ərizəsinə baxılması.

Əlaqə telefonu-050-314-51-37.

***İdarə heyəti***

SON SƏHİFƏ
# Xalq qəzeti
Xalqın qəzeti!
№ 105 (30221) 20 may 2023-cü il, şənbə
veb-sayt: www.xalqqazeti.az

*İdman xəbərləri*

## Güləşçilərimizin 11 Qazaxıstan medalı

**Astanada Qazaxıstanın Olimpiya və dünya çempionu Jaksılık Uşkempirovun xatirəsinə həsr olunmuş güləş üzrə gənclər arasında (U-20) keçirilən beynəlxalq turnirdə komandamız 11 medal qazanıb.**



Memorialda güləşçilərimiz İlkin Qurbanov (60 kq), Kənan Abdullazadə (67 kq) və Ruslan Nurullayev (72 kq) çempion olublar. İsmayıl Rzayev (82 kq), Əli Quliyev (87 kq), Məzaim Mərdanov (130 kq) gümüş, Fərid Sadıxlı (55 kq), Təvəkgül Həziyev (67 kq), Rəvan Nuriyev, Aqil Musayev (hər ikisi 77 kq), Etibar Rzayev (87 kq) isə bürünc medal əldə ediblər.

Qeyd edək ki, ənənəvi yarışda beynəlxalq dərəcəli hakim Əli Babayev ədaləti qoruyub.

## Cüdoçularımız Avropa kuboku yarışında




**Bu gün cüdoçularımız Bosniya və Herseqovinanın paytaxtı Sarayevo şəhərində Avropa kuboku yarışında mübarizəyə başlayırlar.**

Turnirdə Azərbaycanın kişilərdən ibarət komandasının 13 üzvü iştirak edəcək. Turnirin birinci günündə 60, 66, 73 kiloqram çəki dərəcələrində cüdoçular arasında mükafatçılar müəyyənləşəcək.

Yarış mayın 20-də başa çatacaq.

## "Paris-2024"ə vəsiqə verən "Əziz Şuşa" velosiped yarışı

**İyun ayının 7-dən 11-dək ümummilli lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyinə həsr olunmuş "Əziz Şuşa" beynəlxalq velosiped yarışı keçiriləcək.**




Şose velosipedinin qrup ötüşməsi növü üzrə təşkil ediləcək veloturda dünyanın 16-dək ölkəsindən 18-dək komandanın tərkibində 100-dən çox idmançı medallar uğrunda mübarizə aparacaq.

Beynəlxalq Velosipedçilər İttifaqının (UCI) 2023-cü il üçün müəyyənləşdirdiyi təqvim planına daxil edilən 2.2 kateqoriyalı 5 mərhələli yarışa iyunun 7-də Bakı şəhərinin Səbail rayonunda yerləşən Veloparkdan start veriləcək. İlk mərhələdə velosipedçilər 150 km məsafə qət edərək Şamaxı rayonunda finiş xəttini keçəcəklər.

İdmançılar iyunun 8-də Qəbələ - Şəki - Qəbələ marşrutu üzrə 176,2 km, iyunun 9-da Qəbələdən Gəncə şəhərinin mərkəzinə qədər 170 km, iyunun 10-da Gəncədə təyin olunmuş marşrut üzrə dövrə vurduqdan sonra Göygöl Milli Parkına qədər 102,9 km, iyunun 11-də isə Beyləqandan Şuşa şəhərinə qədər 134,9 km məsafədə yarışacaqlar.

Qeyd edək ki, nüfuzlu yarışın nəticələrinə əsasən velosipedçilər "Paris-2024" Yay Olimpiya Oyunlarına lisenziya xalları qazana biləcəklər.

*Leyla SABİRQIZI, "Xalq qəzeti"*

*Sosial şəbəkələrdən seçmələr*

## 200 metrdən çox dərinliyi olan çay məcrası olduğunu eşitmişdiniz?

**Bəli, belə çay var. Bu, Mərkəzi Afrikadan keçən Konqo çayıdır. Dörd min kilometrdən çox uzunluğu olan bu çay ekvatoru 2 dəfə "kəsir". Bu məsafə böyüklüyü axar boyu çayın adının dəyişməsinə də səbəb olur. Belə ki, coğrafiya mütəxəssisləri Konqo çayına Zair çayı da deyirlər. Bəzi yerlərdə onun dərinliyi hətta 200 metrdən çoxdur.**



Alimlər yazırlar ki, dünyanın ən uzun 8 çayından biri olan Konqo dənizə saniyədə 80 min kubmetr su axıdır.

*İ. MƏMMƏDCANLI, "Xalq qəzeti"*

*Sağlamlıq guşəsi*

## Gilası ehtiyatla yeyin…

**Həzm sisteminin iltihabi xəstəlikləri olan insanlara gilas yemək olmaz. Gilas mədə-bağırsaq sistemində səpkini, yaranı, xoranı daha da kəskinləşdirir. Qastroenteroloqların fikrincə, bu giləmeyvə, xüsusən, onikibarmaq, nazik bağırsaq xəstəlikləri, həmçinin disbakterioz və xroniki xəstəliklərin kəskinləşməsi prosesində təhlükəlidir.**



Şəkərli diabet xəstələri də gilas qəbul edərkən ehtiyatlı olmalı, az miqdarda qəbul etməlidirlər. Onların pəhrizində giləmeyvə yalnız desert kimi olmalıdır .

Bundan başqa, artıq çəkisi, maddələr mübadiləsi pozğunluğu olan insanlar üçün də gilas təhlükəli ola bilər.

Təbii şəkərlərlə doyma ilə yanaşı, şirin gilas liflə zəngindir. Əhəmiyyətli bir hissəni yedikdən sonra mədə-bağırsaq traktında pozğunluqları olan insanlar özlərini daha pis hiss edə bilərlər. Belə ki, həmin insanlarda mədə turşuluğu artır. Bununla yanaşı, qıcqırma başlaya bilər, allergik reaksiyalar özünü göstərər.

Gilas karbohidratdır. Gündüzlər qəlyanaltı və ya şam yeməyi kimi, əsas yeməkdə isə desert kimi yeyilməlidir.

Mütəxəssis həkimlərin fikrincə, axşam saat 19:00-dan sonra gilas, albalı (şirin gilas) yemək tövsiyə edilmir.

*Z.HÜSEYNOVA, "Xalq qəzeti"*

*Texnologiya yenilikləri*

## Apple MR cihazının ikinci nəsli

**Gələn ay baş tutacaq WWDC 2023 konfransı çərçivəsində Apple şirkətinin öz ilk qarışıq reallıq (AR + VR / Mixed Reality) cihazını təqdim edəcəyi gözlənilir. Məşhur analitik Ming-Chi Kuonun sözlərinə əsasən, Apple artıq MR cihazın ikinci nəsli üzərində çalışır.**



Analitik, həmçinin bildirib ki, şirkət MR cihazın ikinci nəslini iki versiyada təqdim etməyi planlaşdırır. Söhbət, MR cihazın adi, həmçinin Pro versiyalarından gedir.

Mediaya ötürülən məlumatda qeyd edilib ki, Apple birinci MR cihazdan fərqli olaraq ikinci nəsil MR cihazların 9 dəfə daha çox satılmasına nail olmaq niyyətindədir. Qeyd etmək lazımdır ki, birinci MR cihaz hələ heç satışa belə çıxarılmayıb. Son məlumat sızıntılarına əsasən, şirkətin ilk MR cihazı 3000 dollar satış qiymətinə sahib olacaq. Analitiklərin sözlərinə əsasən, Apple üçün tamamilə yeni olan bu məhsulu birinci il ərzində 7–10 milyon ədəd satıla bilər. Ming-Chi Kuonun fikrincə, MR cihazın ikinci nəslini 2025-ci ilə kimi gözləmək lazım gələcək.

*Z.BƏŞİRQIZI, "Xalq qəzeti"*

## Pivə ilə işləyən motosiklet

**ABŞ-da pivə ilə işləyən motosiklet icad edilib. İxtiranın müəllifi Kay Mayklsondur. Xəbəri "Amerikanın səsi" yayıb.**



Onun sözlərinə görə, motosiklетə benzin mühərriki əvəzinə xüsusi çəllək quraşdırılıb. Burada pivə 300 dərəcəyə qədər qızdırılır və motosiklet hərəkət edir.

Mayklsonun hesablamalarına görə, motosiklet təxminən saatda 250 kilometr sürət yığmağa qadirdir.

*F.SALMANOVA, "Xalq qəzeti"*

*Proqnoz*

## Bu gün bölgələr yağışlı olacaq



Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin məlumatına əsasən, mayın 20-də Bakıda və Abşeron yarımadasında dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Şimal küləyi əsəcək. Gecə 12-16°, gündüz 22-27° isti olacaq. Atmosfer təzyiqi norma daxilində 760 mm civə sütunu, nisbi rütubət gecə 65-75, gündüz 45-55 faiz olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, şimşək çaxacağı, dolu düşəcəyi ehtimalı var. Bəzi yerlərdə duman olacaq. Mülayim şərq küləyi əsəcək. Havanın temperaturu gecə 11-16°, gündüz 22-27°, dağlarda gecə 3-8°, gündüz 8-13° isti olacaq.

*Qəzənfər QASIMOV, "Xalq qəzeti"*

## "YouTube"nin reklam yenilikləri

**"YouTube" smart televizorlar üçün yeni reklam formatını istifadəyə verib.**



Film, proqram və s. izlədiyimiz zaman nümayiş olunan reklam çarxlarını gizlətmək mümkünsüz olacaq.

Reklamlara baxmaq istəməyən istifadəçilər üçün isə ödənişli "YouTube Premium" abunəliyindən istifadə etmək məsləhət görülür.

Bundan əlavə, "YouTube" fasilə zamanı banner reklamları göstərməyi də planlaşdırır. Belə reklamlar isə "rədd et" düyməsini sıxmaqla silinəcək.

*Fidan HÜQUQQIZI, "Xalq qəzeti"*

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75
Məsul katib: 493-61-02
Texniki şöbə: 493-59-64
Mühasibatlıq: 498-85-29
E-mail: xalqqazeti@gmail.com
info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 5183
SİFARİŞ 1233
QİYMƏTİ 40 qəpik

Növbətçi redaktor
Məsaim ABDULLAYEV

Çapa imzalanmışdır 00:00